

Milli azadlıqdan şirin nemət yoxdur!




# Zəfərə 15 gün qalırdı...

Bax səh. 2



# Qubadlı şəhəri günü - bayram bayrama qarışıb...

Bax səh. 3

YENİ AZƏRBAYCAN
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir
Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.
25 oktyabr 2024-cü il, cümə
№ 197 (6783)
Qiyməti 60 qəpik




# XVI BRICS Sammitinin "Outreach"/"RICS+" formatının ilk plenar iclasında...

## İlham Əliyev: Azərbaycan beynəlxalq münasibətlərdə çoxtərəflilik prinsipinin fəal tərəfdarıdır

Bax səh. 2

# Azərbaycanla təzyiq və ultimatum dilində danışmaq olmaz!

Bax səh. 3

## Biz hər zaman dost və qardaş Türkiyənin yanındayıq!



Bax səh. 4

## Sülh sazişi Kazanda müzakirə edilib

Bax səh. 2

## Qərb bəyan etdiyi prinsiplərə qarşı...



Bax səh. 6

## BRICS: Qlobal genişlənməyə doğru

Sürətlə inkişaf edən ölkələr qrupu kimi səciyyələndirilən BRICS-in Tatarıstanın paytaxtı Kazanda keçirilən XVI sammiti bir sıra önəmli məqamlarla yadda qalıb. O cümlədən BRICS-ın iştirakçı dövlətlərinin başçıları sammitin yekununa dair Kazan Bəyannaməsini qəbul ediblər.

BRICS üzvlərinin ümumi birgə sənədi kimi yayılan Bəyannamədə sammit çərçivəsində yüksək səviyyədə görüşün və Rusiyanın assosiasiyaya bütün sədrliyinin yekunları qeyd olunub. Sənəd bütövlükdə dünyadakı vəziyyətin ümumi qiymətləndirməsini özündə ehtiva edir, Rusiyanın BRICS-ə sədrliyinin nəticələrini ümumiləşdirir və uzunmüddətli perspektivdə qarşılıqlı fəaliyyət üçün təlimatları...

Bax səh. 3

## TUSAŞ-a xain hücum...

Xəbər verildiyi kimi, Türkiyənin paytaxtı Ankaranın Kahramankazan bölgəsində yerləşən Türk Aviasiya və Kosmik Sənaye Şirkətinin (TUSAŞ) baş qərargahında partlayış baş verib. Xain hücumda 5 nəfər şəhid olarkən, 2-si ağır olmaqla 22 nəfər yaralanıb. Terrorçular təhlükəsizlik qüvvələri tərəfindən zərərsizləşdirilib.

Türkiyənin milli təhlükəsizliyi ilə bağlı kritik əhəmiyyətə malik layihələrin həyata keçirilməsinə məsul olan şirkətə hücum edən biri qadın olmaqla iki terrorçu əvvəlcə qaçırdıqları taksinin sürücüsü Murat Arslanı öldürüb maşının yük yerinə qoyublar. Daha sonra eyni maşınla TUSAŞ-ın binasının yaxınlığına gəliblər. Terrorçular TUSAŞ obyektlərinin...

Bax səh. 4

## Asiya və Avropa arasında etibarlı körpü

Çinli ekspert, ABŞ-ın Bucknell Universitetinin siyasi elmlər və beynəlxalq münasibətlər üzrə professoru Zhiqun Zhu müsahibəsində bildirib ki, Azərbaycan və Çin arasında iqtisadi əməkdaşlığın potensialı hədsiz dərəcədə böyükdür. Rəsmi Bakı Pekini təkcə dost ölkə kimi deyil, həm də texnoloji tərəqqinin mənbəyi kimi qəbul edir. Ölkələrimiz arasında iqtisadi əməkdaşlıq üçün imkanlar son illərdə genişlənir. Eyni zamanda, iki ölkə nəqliyyat sahəsində əməkdaşlığı daha da gücləndirmək üçün birgə işləyir. Bu güclənən təşəbbüslər isə coğrafi...

Bax səh. 5

## 168 min hektar ərazi minalardan təmizlənib

Azərbaycan dünyada mina terrorundan ən çox əziyyət çəkən ölkələrdən biridir. 30 illik işğal dövründə Ermənistan xeyli sayda hərbi cinayətlər törədib ki, bunların sırasında mina terroru da əsas yerlərdən birini tutur. Ermənistanın mina terroru hələ də davam edir. Qeyd edək ki, oktyabrın 24-də "Minalar Əleyhinə Azərbaycan Kampaniyası" İctimai Birliyinin təşkilatçılığı ilə Azərbaycanda mina qurbanlarına həsr olunmuş dəyirmi masa keçirilib.

"Minalar Əleyhinə Azərbaycan Kampaniyası" İctimai Birliyinin sədri Hafiz...

Bax səh. 5




## Yaxın Şərqdə yeni eskalasiya olacaqmı?

Bax səh. 7



## Ukraynanın NATO-ya gedən yolu bağlıdır

Bax səh. 7

# XVI BRICS Sammitinin "Outreach"/"BRICS+" formatının ilk plenar iclasında...

## İlham Əliyev: Azərbaycan beynəlxalq münasibətlərdə çoxtərəflilik prinsipinin fəal tərəfdarıdır

Oktyabrın 24-də Kazan şəhərində XVI BRICS Sammitinin "Outreach"/"BRICS+" formatının ilk plenar iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak etmək üçün "Kazan Expo" Beynəlxalq Sərgi Mərkəzinə gəlib.

Əvvəlcə XVI BRICS Sammitinin "Outreach"/"BRICS+" formatının nümayəndə heyətləri başçıları - iştirakçılar birgə foto çəkdiriblər.

Dövlətimizin başçısı tədbirdə çıxış edib.

Dəvətə görə Rusiya Federasiyasının Prezidentinə təşəkkürünü bildirən Prezident İlham Əliyev Rusiya Federasiyasını BRICS-də uğurlu sədrliyi münasibətilə təbrik edib.

Dövlətimizin başçısı bəyan edib ki, Azərbaycan beynəlxalq münasibətlərdə çoxtərəflilik prinsipinin fəal tərəfdarıdır: " Bu, 2020-2023-cü illərdə Qoşulmama Hərəkatına sədrlik dövründə bizim tərəfimizdən əyani şəkildə nümayiş etdirilib. Dördillik sədrlik dövründə Qoşulmama Hərəkatı özünün institusional inkişafında böyük addım atıb, beynəlxalq münasibətlər sistemində öz yerini xeyli möhkəmləndirib. Hərəkata uğurlu sədrlik təcrübəsi bu gün bizə Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin hazırkı sədri qismində kömək edir.

Öz coğrafi mövqeyindən istifadə edən və müasir infrastruktur yaradan Azərbaycan Avrasiyanın mühüm nəqliyyat və logistika mərkəzlərindən birinə çevrilib. "Şərq-Qərb" və "Şimal-Cənub" nəqliyyat dəhlizləri bizim ərazimizdən keçir. Bu nəqliyyat yollarının Azərbaycan ərazisində olan bütün seqmentləri uğurla fəaliyyət göstərir. Hazırkı məqamda ərazimizdən yük axınının kəskin artmasını nəzərə alaraq, biz bu dəhlizlərin ötürücülük imkanlarının artırılmasına əlavə vəsaitlər yatırırıq.

Növbəti ayda Bakı ən böyük beynəlxalq iqlim konfransının - COP29-un keçirilməsi məkanı olacaq. Təqribən 200 ölkənin COP29-un Azərbaycanda keçirilməsinə dair yekdil qərarı bizim siyasətimizə hörmətin və dəstəyin parlaq sübutudur. Biz artıq Qlobal Cənub və Qlobal Şimal arasında iqlim üzrə əməkdaşlığa töhfə veririk və istər iqlim dəyişikliyi ilə bağlı məsələlərdə, istərsə də qlobal təhlükəsizlik, beynəlxalq hüququn aliliyi, bir-birinin işlərinə qarışmamaq, qarşılıqlı hörmət məsələlərində qarşılıqlı anlaşmaya nail olunmasına səy göstərəcəyik.

Diqqətinizə görə təşəkkür edirəm.

Prezident Vladimir Putin Azərbaycan Prezidentinə təşəkkürünü bildirib: "Həqiqətən, Siz tamamilə düzgün qeyd etdiniz ki, Azərbaycanın rolu, xüsusilə logistika dəhlizlərinin inkişafında çox mühümdür. Eyni zamanda, zənnimcə, Rusiyanın, həmçinin digər BRICS dövlətləri ilə artan əmtəə dövriyyəsini nəzərə alsaq, Qazaxıstan Prezidentinin indicə dediyi kimi, bu da böyük əhəmiyyətə malikdir".

***

Qeyd edək ki, hazırda 10 üzvü olan BRICS 2006-cı ildə yaradılıb. Builki BRICS Sammitinə 36 ölkədən və 6 beynəlxalq təşkilatdan nümayəndə heyətləri, o cümlədən 22 dövlət başçısı və BMT-nin Baş katibi Antonio Quterreş qatılıblar. BRICS 2009-cu ildən bəri hər il rəsmi sammitlərdə toplaşan və çoxtərəfli siyasətləri əlaqələndirən vahid geosiyasi bloka çevrilib, həmçinin dünya əhalisinin təxminən yarısını və qlobal iqtisadiyyatın dörddəbirindən çoxunu təşkil edən nəhəng iqtisadi güc mərkəzinə çevrilib.












# Sülh sazişi Kazanda müzakirə edilib

Oktyabrın 24-də Rusiya Federasiyasının Kazan şəhərində keçirilən XVI BRICS Sammiti əsnasında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Ermənistanın Baş naziri Nikol Paşinyan arasında görüş olub.

AZƏRTAC xəbər verir ki, görüşdə tərəflər ikitərəfli sülh gündəliyinin irəli aparılmasını, o cümlədən sülh sazişini, sərhədlərin delimitasiyası və demarkasiyasını, qarşılıqlı maraq doğuran digər məsələləri müzakirə ediblər.

İki ölkənin xarici işlər nazirlərinə Sülh və Dövlətlərarası Münasibətlərin Qurulması haqqında Saziş üzərində işlərin mümkün tez zamanda yekunlaşdırılması və imzalanması üçün ikitərəfli danışıqları davam etdirmək barədə təlimat verilib.

# Zəfərə 15 gün qalırdı...

2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin cəbhəboyu genişmiqyaslı təxribat törətməsinə cavab olaraq Azərbaycan Ordusu sonradan "Dəmir yumruq" adlandırılan əks-hücum əməliyyatına başladı. 44 gün davam edən Vətən müharibəsi təxminən otuzillik işğala son qoyulması və ərazi bütövlüyümüzün bərpası ilə nəticələndi. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılmış möhtəşəm Zəfər tariximizə qızıl hərflərlə yazıldı.

**Vətən müharibəsinin 29-cu günü**

**25.10.2020**

• Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Müdafiə Nazirliyinin Mərkəzi Komanda Məntəqəsində operativ müşavirə keçirilib.

• Azərbaycan Ordusu Zəngilan, Cəbrayıl, Qubadlı rayonlarının bir neçə kəndini və Qubadlı şəhərini işğalçılardan azad edib. Bu barədə Prezident İlham Əliyev özünün rəsmi tviter səhifəsində bildirib.

• Prezident İlham Əliyev Amerika Birləşmiş Ştatlarının "Fox News" televiziya kanalına müsahibə verib.

• Cəbhənin Ağdərə, Xocavənd, Füzuli, Hadrut, Qubadlı və Laçın istiqamətlərində döyüş əməliyyatları müxtəlif intensivliklə davam edib. Azərbaycan Ordusunun bölmələri əməliyyat planına uyğun olaraq əsas istiqamətlərdə döyüş fəaliyyətlərini davam etdirərək nəzarətə götürülən əraziləri bir qədər də genişləndirib. Qoşunlarımız cəbhənin Xocavənd, Qubadlı və Laçın rayonları ərazisində düşmənə ciddi zərbə vuraraq onun müqavimətini zəiflədib və müxtəlif istiqamətlərdə yeni mövqelərə doğru irəliləyib. Ermənistan silahlı qüvvələrinin Ağdərə və Xocavənd istiqamətlərində yerləşən bölmələrinin şəxsi heyəti çoxsaylı itkilərə məruz qalıb. Azərbaycan Ordusu düşmənin 3 tankını, 2 piyada döyüş maşınını, 6 artilleriya qurğusunu, 1 "Qiasint-B" topunu, 2 "Qrad" qurğusunu, 1 komanda idarəetmə məntəqəsini, 9 avtomobil texnikasını və bir neçə atəş nöqtəsini məhv edib. Bu barədə Müdafiə Nazirliyi məlumat yayıb.

• Müdafiə Nazirliyi Azərbaycan Ordusunun düşmənə qarşı yüksək dəqiqlikli silah növü tətbiq etməsi barədə video paylaşıb.

• Müdafiə Nazirliyi Qubadlı, Cəbrayıl və Zəngilan rayonlarının işğaldan azad olunan kəndlərinin videogörüntülərini yayıb.

• Düşmənin atəş nöqtələri məhv edilib.

• Ermənistan ordusu Goranboyun Meşəli kəndinə qadağan olunmuş raket atıb.


İlham Əliyev
@azpresident

Bu gün Azərbaycan Ordusu Zəngilan, Cəbrayıl, Qubadlı rayonlarının bir neçə kəndini və Qubadlı şəhərini işğalçılardan azad etmişdir. Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!

Translate Tweet

11:02 PM · Oct 25, 2020 · Twitter Web App

• Qubadlı istiqamətində gedən döyüşlərdə Ermənistan silahlı qüvvələrinin bölmələri hücuma cəhd göstəriblər. Bölmələrimizin gördükləri qəti tədbirlər nəticəsində düşmən 50 nəfərədək canlı qüvvə itirərək geri çəkilməyə məcbur edilib. Nəticədə düşmənin silah-sursatla dolu dörd avtomobili və bir zirehli texnikası ələ keçirilib.

• Cəbhənin müxtəlif istiqamətlərində gedən döyüşlərdə düşmənin 6 D-30 və 1 D-1 haubitsa topu, 2 PDM-2 zirehli texnikası, 1 avtomobil texnikası və xeyli sayda döyüş sursatı məhv edilib.

• ANAMA: Cəbhəboyu ərazilərdə raket, top mərmiləri və dronlar zərərsizləşdirilib.



# Azərbaycanla təzyiq və ultimatum dilində danışmaq olmaz!

## Avropa Parlamenti anti-Azərbaycan xislətini bütün rəngarəngliyi ilə nümayiş etdirməyə qərar verib

### Avropa Parlamentinin 2024-cü il 24 oktyabr tarixli qətnaməsinə Azərbaycan Respublikası Milli Məclisinin münasibəti

Avropa Parlamentinin oktyabrın 24-də qəbul etdiyi "Azərbaycanda vəziyyət, insan hüquqlarının və beynəlxalq hüququn pozulması və Ermənistanla münasibətlər" adlı qətnaməsi ilə tanış olduq. Özünü Avropa parlamentarizminin siması kimi təqdim edən bu təsisat "qoca qitə"nin bütün problemlərini bir kənara qoyaraq, yenidən ölkəmizə qarşı hücuma keçib.

Bu fikirlər Avropa Parlamentinin 24 oktyabr tarixli qətnaməsinə Azərbaycan Milli Məclisinin münasibəti ilə bağlı şərhində yer alıb.

Şərhdə deyilir ki, Avropa Parlamentinin Azərbaycan xalqının haqlı gözləntilərinə münasibətdə etinasızlığına artıq alışmışıq. Nəticə etibarilə, Ermənistan tərəfindən torpaqlarımızın 30 illik işğalı, şəhər və kəndlərimizin yer üzündən silinməsi, işğal olunmuş torpaqlarımızda və Ermənistan ərazisində xalqımızın tarixi, dini və mədəni irsinin kütləvi şəkildə dağıdılması və mənimsənilməsi, qaçqın və məcburi köçkün vəziyyətinə düşmüş bir milyondan artıq soydaşımızın hüquqlarının tapdanması, onların uzun illər ərzində çəkdikləri iztirablar avropalı parlamentariləri heç vaxt maraqlandırmayıb. 44 günlük Vətən müharibəsi və 2023-cü ilin sentyabrında keçirilmiş anti-terror tədbirləri nəticəsində Azərbaycanın öz ərazi bütövlüyünü və suverenliyini təmin etməsi, beynəlxalq hüququn norma və prinsiplərini təkbaşına icra etməsi ilə də barışa bilməyiblər.

Lakin indi məlum olur ki, Avropa Parlamenti artıq öz anti-Azərbaycan xislətini bütün rəngarəngliyi ilə nümayiş etdirməyə qərar verib. Qətnamənin mətnindən də göründüyü kimi, ölkəmizə qarşı fəaliyyət göstərən müxtəlif maraq qruplarının istifadə etdikləri ayrı-ayrı mövzuların, təzyiq alətlərinin toplanaraq, bir sənəd formasında tərtib olunması məhz bunu deməyə əsas verir.

Bir neçə kağız parçasında Azərbaycana qarşı saxta məlumatlara əsaslanan faktlar, absurd iddialar, ittihamlar, təhdid və tələblər irəli sürülür. Ölkəmizin ərazi bütövlüyünə və suverenliyinə açıq şəkildə hörmətsizlik edilir, daxili işlərimizə müdaxiləyə cəhdlər göstərilir. Eyni zamanda, Ermənistana xüsusi nəvaziş nümayiş etdirilir, onun silahlandırılması təşviq olunur, bununla da həmin ölkədə revanşist meyllərin gücləndirilməsinə və regionda yenidən münaqişənin alovlandırılmasına ciddi təşəbbüs göstərilir.

Qətnamədə işğaldan azad edilmiş torpaqlarımızda aparılan yenidənqurma və bərpa işləri, keçmiş məcburi köçkünlərin öz doğma yurdlarına geri qayıtması, qərbi azərbaycanlıların haqlı tələbləri, ərazilərimizin Ermənistan tərəfindən kütləvi şəkildə basdırılmış minalardan təmizlənməsi, itkin düşmüş 4 minə yaxın soydaşımızın taleyi haqda bir ifadə belə yoxdur. Bu da həmin sənədin nə dərəcədə qərəzli və birtərəfli olmasını bariz şəkildə göstərir. Əlləri Azərbaycan xalqının qanına bulaşmış, sülh və insanlıq əleyhinə cinayətlər törətmiş şəxslərin hərbi əsir kimi qələmə verilməsi isə sadəcə hiddət doğurur.

Ölkəmizin qlobal və regional səviyyədə sülhün, sabitliyin və əməkdaşlığın təmin olunması naminə irəli sürdüyü təşəbbüslərə, göstərdiyi səylərə qərəzli münasibət də diqqətdən yayınmır. Təəssüf ki, avropalı parlamentarilər hətta iqlim dəyişmələri ilə bağlı mühüm bir məsələni siyasiləşdirərək, Azərbaycana qarşı ittiham aləti kimi istifadə etməkdən belə çəkinmirlər.

Bütövlükdə, bu qətnamə Azərbaycanofob, türkofob və islamofob qüvvələrin həqiqi mahiyyətinin başa düşülməsi baxımından maraq doğurur: öz çirkin niyyətlərinin reallaşması naminə hamılıqla qəbul edilən dəyərlərin və prinsiplərin, haqq-ədalət anlayışının üzərindən asanlıqla xətt çəkmək, onları öz maraqlarına uyğun şərh etmək qəbuledilləndir.

Bu qətnaməni Avropa Parlamentində dərin kök salmış korrupsiyanın və rüşvətxorluğun ağır fəsadları kimi qiymətləndirsək, hər halda, yanılmarıq. Fransanın, Ermənistanın və erməni lobbisinin yalan narrativləri üzərində qurulmuş bu qətnamə əslində əldə olunmuş maddi mənfəətin qarşılığıdır.

Digər düşündürücü məqam isə Avropa Parlamentində şovinist, irqçi və müstəmləkəçi təfəkkürün nə dərəcədə geniş miqyas almasıdır. Müstəmləkəçiliyə qarşı mübarizə aparan xalqları irredentist qruplar adlandıran avropalı parlamentarilər Fransanın müstəmləkəçilik siyasətinə haqq qazandıraraq, bunu Avropa siyasəti kimi qələmə verirlər. Hesab etmək olar ki, müstəmləkəçilikdən əziyyət çəkən xalqlar onların azadlıq və müstəqillik arzularının qarşısını kimlərin əngəllədiyi barədə daha aydın təsəvvürə malik olacaqlar.

Avropa Parlamentinin ölkəmiz əleyhinə yönəlmiş bu qətnaməsindən yalnız bir nəticə çıxarmaq olar: Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən, ölkəmizin milli, suveren maraqlarına xidmət edən müstəqil siyasət kimlərisə ciddi narahat edir. Lakin onlar unudurlar ki, Azərbaycanla təzyiq və ultimatum dilində danışmaq olmaz.

Azərbaycan Respublikasının Milli Məclisi Avropa Parlamentinin reallıqları təhrif edən, qeyri-obyektiv və birtərəfli qətnaməsini qəti şəkildə rədd edir. Bildiririk ki, parlamentimiz ölkəmizin və xalqımızın mənafelərinin müdafiəsi naminə aparılan bu siyasəti birmənalı şəkildə dəstəkləyir və onun reallaşması üçün bütün qüvvəsini bundan sonra da səfərbər edəcəkdir.

# Qubadlı şəhəri günü - bayram bayrama qarışıb...

Vətən müharibəsindəki və lokal xarakterli antiterror tədbirlərindəki tarixi qələbələr sayəsində otuz il ərzində düşmənin nəzarəti altında qalan torpaqlarımız işğaldan azad olunub, ölkənin bütün ərazilərində suverenliyimiz tam təmin edilib. Bu qələbələri heç kim bizə bəxş etməyib. Onları igid hərbiçilərimiz canları, qanları hesabına qazanıblar. Buna görə də hər bir şəhərin və kəndin işğaldan azad edilməsi tarixi bizim üçün son dərəcə böyük önəm daşıyır. Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə işğaldan azad edilmiş ərazilər üzrə şəhər günlərinin təsis edilməsi də bunun rəsmi olaraq təsdiqidir. Həmin sərəncama əsasən 25 oktyabr - Qubadlı şəhəri günü kimi müəyyənləşdirilib. Bu gün qubadlılar, eləcə də onlarla birlikdə bütün Azərbaycan xalqı həm Qubadlının işğaldan azad edilməsi tarixini, həm də Qubadlı şəhəri gününü bayram kimi qeyd edirlər. Necə deyərlər, bayram bayrama qarışıb.

## İşğala qədərki Qubadlı

Qubadlı rayonu ölkəmizin cənub-qərbində, Qarabağ yaylasının cənub-şərqində yerləşir. Rayonun sahəsi 802 kvadratkilometrdir və əsasən dağlıq ərazilərdən ibarətir. Qubadlı rayonu qərbdən 120 km məsafədə Ermənistanla, şimaldan Laçın, Xocavənd rayonları, şərqdən Cəbrayıl rayonu, cənubdan isə Zəngilan rayonu ilə həmsərhəddir. Kəndlərin əksər hissəsi Həkəri və Bərgüşad çayları ətrafında yerləşir.

Ümumilikdə rayonda 79812 hektar torpaq fondu var. Xalq arasında "Yazı düzü", "Gəyən" və "Məzrə" adlanan düzənliklər məhsuldar torpaqları ilə məşhurlaşıb. İşğala qədər torpaq fondunun 14956 hektarı əkin, 850 hektarı çoxillik bitki, 631 hektarı biçənək, 17192 hektarı örüş-otlaq, 543 hektarı həyətyanı, 13160 hektarı meşə, 582 hektarı bağ və üzümlüklər idi. Qubadlıda 13160 hektar meşə sahəsi olub. Rayonun ərazisi təbii dərman bitkiləri ilə də zəngindir. Qubadlı rayonunun Hacılı kəndində mişar daşı yatağı, Bərgüşad çayının sol sahilində yəşəm yatağı, Əliquluuşağı, Qundanlı, Muradxanlı və Başarat kəndlərində mərmərləşmiş əhəng daşı yataqları, o cümlədən Mollabürhan kəndinin cənubunda tuf daş yatağı, Xanlıq kəndində qum-gil yatağı, Eyvazlı kəndində əqiq yatağı mövcuddur;

Qubadlıda işğala qədər taxıl, üzüm, tütün, bostan məhsulları becərilir, heyvandarlıqla məşğul olunurdu. Rayonun təsərrüfat fəaliyyətinin əsasını əkinçilik və heyvandarlıq təşkil edirdi. Burada tütünçülük iqtisadiyyatının mühüm bir istiqamətini təşkil edirdi. Əsas əkin sahələri "Gəyən" və "Yazı" düzlərində, dağ ətəyi meşə zonasında, Bərgüşad və Həkəri çaylarının vadisində yerləşirdi.

## İşğalın ağır fəsadları

1988-ci ildən başlayaraq Ermənistanla (120 km) və keçmiş Dağlıq Qarabağla (45 km) sərhəddə yerləşən Qubadlı rayonuna hər iki tərəfdən təcavüzkar hücumlar başlamışdı. Dinc əhaliyə qarşı terror törədilməsi davamlı hal almışdı. Getdikcə intensivləşən hücumların nəticəsi olaraq rayon 1993-cü il avqustun 31-də ermənilər tərəfindən tamamilə işğal olundu.

İşğal nəticəsində rayondan 29997 nəfər məcburi köçkün respublikanın müxtəlif yaşayış məntəqələrində müvəqqəti yerləşmək məcburiyyətində qalıb. Bütövlükdə işğal nəticəsində 94 yaşayış məntəqəsi, 7278 fərdi yaşayış evi, 64 inzibati bina, 148 sosial təyinatlı obyekt, 161 mədəniyyət ocağı, 7 məscid, 16 körpü dağıdılaraq yararsız vəziyyətə salınıb. O cümlədən 1080 ədəd kənd təsərrüfatı obyekti, 650 km avtomobil yolu, 2 su anbarı, 150 km magistral su, 4830 km elektrik, 165 km magistral qaz boru xətləri, 9 tikinti idarəsi, 4 yol idarəsi, 18 ədəd dəyirman, 4 ədəd su nasos stansiyası, 120 ədəd elektrik yarımstansiyası və transformatorlar tamamilə dağıdılıb.

İşğal illərində rəsmi İrəvan Qubadlıda da qanunsuz məskunlaşma həyata keçirib. Belə ki, xaricdən gətirilən ermənilər burada yerləşdiriliblər. Məsələn, erməni lobbisinin vəsaitləri ilə Xanlıqda qəsəbə salınıb. Cenevrə konvensiyalarına görə, işğal edilmiş torpaqlarda qanunsuz məskunlaşma aparan dövlət müharibə cinayətləri törədən dövlət sayılır.







## Müharibənin gedişində dönüş

Qubadlının işğaldan azad edilməsi 44 günlük Vətən müharibəsinin gedişində əhəmiyyətli dönüş nöqtəsi oldu. Qubadlının azad edilməsi əməliyyatı bir neçə gün çəkdi. Şəhərdə ermənilər güclü istehkamlar qurmuşdular. Yüksəkliklərdə düşmənin hərbi birləşmələri yerləşmişdi. Qubadlını azad etmək üçün ilk növbədə yüksəkliklər götürülməli idi. Çünki düşmən bu yüksəkliklərdən müntəzəm olaraq hərbçilərimizə atəş açırdı.

Belə bir şəraitdə Qubadlı əməliyyatının həyata keçirilməsi xüsusi peşəkarlıq və fədakarlıq tələb edirdi. Azərbaycan Ordusu bu peşəkarlığı, fədakarlığı göstərdi. Əvvəlcə şəhərə hakim olan yüksəkliklər ələ keçirildi və ətrafda yerləşən kəndlər, o cümlədən Xanlıq, Padar, Sarıyataq kəndləri işğaldan azad edildi. Bundan sonra 2020-ci il oktyabrın 25-də Azərbaycan Silahlı Qüvvələri şəhəri düşməndən təmizlədi. Bütövlükdə noyabrın 9-dək Qubadlı şəhəri və rayonun 41 kəndi ağır döyüşlərdən sonra işğaldan azad edilib.

Qubadlı rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarında iştirak edərək şəxsi igidlik və şücaət nümayiş etdirmiş 15209 nəfər hərbi qulluqçu Azərbaycan Prezidentinin müvafiq sərəncamları ilə "Qubadlının azad olunmasına görə" medalı ilə təltif edilib. Prezident İlham Əliyev 23 dekabr 2020-ci il tarixində rayona səfəri çərçivəsində Qubadlıda Azərbaycan Bayrağını ucaldıb.

## Qubadlının yeni inkişaf tarixi

44 günlük Vətən müharibəsindən sonra Qubadlının da yeni inkişaf tarixi başlayıb. İşğaldan azad olunmuş digər ərazilərimiz kimi, burada da genişmiqyaslı quruculuq-abadlıq işləri həyata keçirilir, əhalinin layiqli qayıdışının təmin edilməsi üçün müasir infrastruktur qurulur, yaşayış evləri tikilir. İnfrastruktur obyektləri layihələndirilərkən Qubadlının 2050-ci ilə qədərki inkişaf dinamikası nəzərə alınıb. Sovet vaxtında Qubadlı rayonunun ümumi enerji istehlakı 12 meqavat idi. Ancaq burada inşa olunacaq yarımstansiya 40 meqavata hesablanıb və lazım olarsa, onun gücü iki dəfə artırıla bilər.

Hazırda Prezident İlham Əliyevin tapşırığı ilə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının sosial-iqtisadi inkişafında mühüm rol oynayacaq Qubadlı-Eyvazlı avtomobil yolunun tikintisi aparılır. 2023-cü il sentyabrın 5-də dövlətimizin başçısı "Yeni Qubadlı-Laçın avtomobil yolunun layihələndirilməsi və tikintisi ilə bağlı tədbirlər haqqında" sərəncam imzalayıb. Sərəncama əsasən, Xudafərin-Qubadlı-Laçın avtomobil yolunun 33-cü kilometrliyindən başlayan yeni Qubadlı-Laçın avtomobil yolunun layihələndirilməsi və tikintisinin həyata keçirilməsi məqsədilə 2023-cü il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə 20 milyon manat ayrılıb.

İndiyədək Prezident İlham Əliyev bir neçə dəfə Qubadlıda səfərdə olub. Həmin səfərlər çoxsaylı açılış və təməlqoyma tədbirləri ilə yadda qalıb. O cümlədən dövlətimizin başçısı 25 oktyabr 2021-ci il tarixində rayona səfəri çərçivəsində Xanlıq-Qubadlı yolunun təməlqoyma, "Qubadlı" yarımstansiyasının və Qubadlı rayonunda Dövlət Sərhəd Xidmətinin yeni hərbi hissə kompleksinin açılış tədbirlərinə qatılıb, həmçinin rayon ictimaiyyətinin nümayəndələri ilə görüşüb. 2022-ci il oktyabrın 19-da baş tutan səfər zamanı isə Prezident İlham Əliyev "Zabuxçay" və "Bərgüşadçay" su anbarlarının layihələri ilə tanış olub, "Azərişıq" ASC-nin 35 kilovoltluq yarımstansiyasının və Rəqəmsal İdarəetmə Mərkəzinin təməlqoyma mərasiminə qatılıb.

Artıq Qubadlı şəhəri də yenidən qurulur. Prezident İlham Əliyev 2023-cü il mayın 4-də Qubadlı şəhərində ilk yaşayış məhəlləsinin təməlinin qoyulması mərasimində iştirak edib. Dövlət başçımıza məlumat verilib ki, ümumi sahəsi 2,6 hektara yaxın olan yaşayış məhəlləsinin yerləşdiyi ərazi çay və dağ mənzərəsi ilə əhatə olunub. Məhəllə şəhərin təsdiq edilmiş ümumi Baş planına uyğun salınır. Bu məhəllədə binaların üçmərtəbəli və dördmərtəbəli olması planlaşdırılıb Ümumilikdə məhəllədə 156 mənzilin tikintisi nəzərdə tutulur.

Xanlıq, Mahruzlu, Zilanlı Qubadlı rayonunda ilkin mərhələdə təməli qoyulan kəndlər sırasında yer alır. Hər üç kəndin təməli Prezident İlham Əliyevin iştirakı ilə qoyulub. Bütün bunlar Qubadlının xoş günlərindən xəbər verir.

*Mübariz FEYİZLİ*

# BRICS: Qlobal genişlənməyə doğru

Sürətlə inkişaf edən ölkələr qrupu kimi səciyyələndirilən BRICS-ın Tatarıstanın paytaxtı Kazanda keçirilən XVI sammiti bir sıra önəmli məqamlarla yadda qalıb. O cümlədən BRICS-ın iştirakçı dövlətlərinin başçıları sammitin yekununa dair Kazan Bəyannaməsini qəbul ediblər.

BRICS üzvlərinin ümumi birgə sənədi kimi yayılan Bəyannamədə sammit çərçivəsində yüksək səviyyədə görüşün və Rusiyanın assosiasiyaya bütün sədrliyinin yekunları qeyd olunub. Sənəd bütövlükdə dünyadakı vəziyyətin ümumi qiymətləndirməsini özündə ehtiva edir, Rusiyanın BRICS-a sədrliyinin nəticələrini ümumiləşdirir və uzunmüddətli perspektivdə qarşılıqlı fəaliyyət üçün təlimatları müəyyənləşdirir.

## Üzv ölkələr arasında həmrəyliyin və əməkdaşlığın daha da gücləndirilməsi zərurəti

Bəyannamədə BRICS çərçivəsində əməkdaşlığın və həmrəyliyin daha da gücləndirilməsinin vacibliyi xüsusi vurğulanıb. BRICS (Braziliya, Rusiya, Hindistan, Çin, Cənubi Afrika Respublikasının baş hərflərinin abreviaturası) dövlətlərarası assosiasiya kimi qurulub. Tərkibində doqquz dövləti - Braziliya, Rusiya, Hindistan, Çin, Cənubi Afrika Respublikası, BƏƏ, İran, Misir və Efiopiyanı birləşdirən təşkilat 2006-cı ilin iyununda Braziliya, Rusiya, Hindistan, Çin iqtisadiyyat nazirlərinin iştirakı ilə Sankt-Peterburq İqtisadi Forumu çərçivəsində yaradılıb.

Sənəddə bildirildiyi kimi, BRICS qarşılıqlı hörmət, həmrəylik, bərabərlik, demokratiya, inklüzivlik, konsensus kimi fundamental prinsiplər əsasında qurulan və fəaliyyətini də həmin təməllər üzərində quran bir platformadır. Bəyannamədə üzv dövlətlər təşkilatın ruhuna sadiq qaldıqlarını və əməkdaşlığı bundan sonra daha da dərinləşdirmək əzmində olduqlarını bildiriblər. Sənəddə BRICS ölkələri arasında əməkdaşlığın əsas istiqamətlərinə diqqət çəkilir. Vurğulandığı kimi, üzv dövlətlər siyasət və təhlükəsizlik, iqtisadiyyat və maliyyə, mədəni və humanitar əlaqələr sahəsində əməkdaşlığı dərinləşməsinə hər cür töhfə veriblər. Bununla belə, inteqrasiyanın dərinləşdirilməsi istiqamətində hələ çox işlərin görülməsinin zəruriliyi də vurğulanıb.

## BRICS-in genişlənmə siyasəti

Bəyannamədə diqqət çəkilən mühüm məqamlardan biri təşkilatın genişlənmə siyasəti ilə bağlıdır. Qurumun sıralarının ilk dəfə genişlənməsi Cənubi Afrika Respublikası hesabına baş verib. Bu ölkə 2010-cu ildə təşkilata qoşulmaq istəyini açıqlayıb və müvafiq prosedur qaydaları keçilməklə bu istək təmin olunub. Verilən son məlumatlara görə, hazırda təxminən 40 ölkə BRICS-ə qoşulmaq niyyətindədir ki, onlardan 20-yə yaxını rəsmi olaraq qəbul üçün müraciət belə edib. Bu sırada Azərbaycan və Türkiyə də var. 2024-cü ilin yanvarında daha dörd ölkə - BƏƏ, İran, Misir və Efiopiya təşkilatın sıralarına qəbul olunub. Qurumun yaxın perspektivdə Şərqi Afrika ölkələri ilə qarşılıqlı əlaqələrinin daha da güclənəcəyi proqnozlaşdırılır . Bəyannamədə Qlobal Cənubdakı ölkələrin BRICS-ə artan marağı alqışlanır. Sənəddə tərəfdaşılğın genişlənəcəyinə dərin inam ifadə olunub.

Öz növbəsində, Rusiya Federasiyası Prezidentinin köməkçisi Yuri Uşakov jurnalistlərlə söhbətində qeyd edib ki, BRICS-in gələcəkdə genişlənməsi tərəfdaş dövlət meyarının süzgəcindən keçir. Onun sözlərinə görə, 13 dövlətdən ibarət siyahı razılaşdırılıb.

Təşkilatın genişlənməsi həm də onun strukturunun yenilənməsi və inklüzivliyin artırılması zərurətini gündəmə gətirir. Sənəddə də üzv dövlətlərin BRICS-in institusional inkişafına yardım göstərməkdə qərarlı olduqları vurğulanıb.

## Ukrayna müharibəsi dialoq və diplomatiya yolu ilə həllini tapmalıdır

BRICS-ın XVI Sammitinin yekunlarına dair qəbul olunan Kazan Bəyannaməsində Ukrayna münaqişəsindən bəhs edilir və vurğulanır ki, bütün dövlətlər bütövlükdə və qarşılıqlı əlaqədə BMT Nizamnaməsinin məqsəd və prinsiplərinə uyğun hərəkət etməlidirlər.

Sammit iştirakçıları Ukrayna münaqişəsinin dialoq və diplomatiya yolu ilə tezliklə tənzimlənməsinin tərəfdar olduqlarını bəyan ediblər. "Ukrayna və onun ətrafındakı vəziyyətlə bağlı müvafiq forumlarda, o cümlədən BMT Təhlükəsizlik Şurasında və Baş Assambleyasında qeyd olunan milli mövqeləri xatırlayırıq. Biz vurğulayırıq ki, bütün dövlətlər bütövlükdə və qarşılıqlı əlaqədə BMT Nizamnaməsinin məqsəd və prinsiplərinə uyğun hərəkət etməlidirlər. Münaqişənin dialoq və diplomatiya vasitəsilə, sülh yolu ilə həllini təmin etməyə xidmət edəcək vasitəçilik və xeyirxah işlərə dair müvafiq təklifləri məmnunluqla qeyd edirik", - deyə Bəyannamədə vurğulanır.

## BRICS Bakıda COP29-un uğurla keçirilməsinə sadiqdir

Hazırda iqlim çağırışlarının aktuallığı bütün dünya üzrə heç vaxt olmadığı qədər artıb. Azərbaycan COP29 konfransına ev sahibliyi hüququnu öz üzərinə götürməklə və ötən bir ildə məsuliyyətli hazırlıq həyata keçirməklə dünyanı narahat edən iqlim çağırışlarına necə böyük həssaslıqla yanaşdığını nümayiş etdirir.




Kazan Bəyannaməsində BRICS-in Bakıda COP29-un uğurla keçirilməsinə sadiqliyi vurğulanıb. "Biz Azərbaycanda COP29-un uğurla keçirilməsində qərarlıyıq", - deyə sənəddə vurğulanır. Bəyannamədə müəyyən edilmiş fəaliyyət və məqsədlərə nail olmaq üçün əsas vasitə kimi inkişaf etməkdə olan ölkələr üçün iqlim maliyyələşdirilməsi üzrə yaxşı nəticələr gözlənildiyinə dərin inam ifadə olunub.

*Mübariz ABDULLAYEV*

# Biz hər zaman dost və qardaş Türkiyənin yanındayıq!

Qardaş Türkiyənin paytaxtı Ankara şəhərində yerləşən Türk Aviasiya və Kosmik Sənaye Şirkətində (TUSAŞ) törədilmiş terror aktı nəticəsində insanların həlak olması və yaralanması xəbərini böyük kədər hissi ilə qarşıladıq.

Bu qəddar cinayətin arxasında dayanan və onu törədənləri şiddətlə qınayır, terroru lənətləyir, həlak olanların ailələrinə, yaxınlarına, qardaş Türkiyə xalqına dərin hüznlə başsağlığı verir, yaralananların tezliklə sağalmasını diləyirik.

Gündən-günə güclənən, beynəlxalq aləmdə söz və nüfuz sahibi olan Türkiyə dövlətinə qarşı yönələn bütün xain planlar və təxribat cəhdləri iflasa məhkumdur. Biz hər zaman dost və qardaş Türkiyənin yanında olduğumuzu qətiyyətlə bildiririk.

**Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatı**

# TUSAŞ-a xain hücum...

## Terror hadisəsi niyə indi və Ankarada "icra olundu"?

## Antiterror tədbirlərinə start verildi... Beynəlxalq aləm Türkiyəni dəstəkləyir

Xəbər verildiyi kimi, Türkiyənin paytaxtı Ankaranın Kahramankazan bölgəsində yerləşən Türk Aviasiya və Kosmik Sənaye Şirkətinin (TUSAŞ) baş qərargahında partlayış baş verib. Xain hücumda 5 nəfər şəhid olarkən 2-si ağır olmaqla 22 nəfər yaralanıb. Terrorçular təhlükəsizlik qüvvələri tərəfindən zərərsizləşdirilib.

Türkiyənin milli təhlükəsizliyi ilə bağlı kritik əhəmiyyətə malik layihələrin həyata keçirilməsinə məsul olan şirkətə hücum edən biri qadın olmaqla iki terrorçu əvvəlcə çağırdıqları taksinin sürücüsü Murat Arslanı öldürüb maşının yük yerinə qoyublar. Daha sonra eyni maşınla TUSAŞ-ın binasının yaxınlığına gəliblər. Terrorçular TUSAŞ obyektlərinin qarşısındakı ilk keçid məntəqəsi olan Jandarma İctimai Asayiş Məntəqəsindən yayınaraq dayanmadan keçdiyi təxmin edilir. Daha sonra terrorçular qarovul binasının önünə gələrək taksidən düşüblər və binaya hücum ediblər. "Milliyyət" qəzetinin yaydığı xəbərə görə, partlayışın ardından obyektdə ehtiyat tədbirləri görülüb və işçilər təhlükəsiz məntəqələrə yönəldiliblər.

Qeyd edək ki, hücumun öncədən planlı şəkildə hazırlandığı bütün detalları ilə ortadadır - bu mənada, terrorçuların hücum üçün növbə dəyişmə vaxtını seçmələri diqqət çəkib. Hücumdan sonra xüsusi əməliyyat qruplarının səyi ilə hər iki terrorçu zərərsizləşdirilib. Hücum zamanı şəhid olanlar isə TUSAŞ-da keyfiyyətə nəzarət zabiti işləyən Cengiz Coşkun, mexanika mühəndisi Zahidə Güçlü, TUSAŞ əməkdaşı Həsən Hüseyn Canbaz, təhlükəsizlik əməkdaşı Atakan Şahin Ərdoğan və taksi sürücüsü Murat Arslandır.

### Dünya səviyyəli müdafiə kompleksi...

Terror hücumuna məruz qalan TUSAŞ dünya səviyyəli müdafiə sənayesi şirkəti sayılır və "Defense News Top 100" siyahısında 50-ci yerdə qərarlaşıb. TUSAŞ-ın tərkibində Aviasiya Struktur Qrupu, Təyyarə Qrupu, Helikopter Qrupu, PUA Sistemləri Qrupu, Kosmik Sistemlər Qrupu, Milli Döyüş Təyyarələri Qrupu və Mühəndislik Qrupu yer alır. TUSAŞ-ın məhsulları və layihələri arasında KAAN, Hürjet, Hürkuş, F-16 modernləşdirilməsi, eləcə də Gökbey və ATAK helikopterləri, Ankara, Anka - 3, Aksunqur, Göktürk 3 kimi milli təhlükəsizlik üçün kritik əhəmiyyət kəsb edən PUA və radarlar da var.

### 9 prokuror istintaqa başlayıb - Yerlikaya PKK-dan şübhələnir

Dövlət rəsmilərindən səslənən ilkin versiya xain hücumun terror təşkilatı, konkret olaraq PKK tərəfindən törədilməsi versiyasıdır. Daxili işlər naziri Əli Yerlikaya terrorçularla bağlı müəyyənləşmə işlərinin davam etdiyini bildirib və vurğulayıb ki, aksiya ilə bağlı izlənilən videogörüntülər böyük şəkildə ehtimalları PKK-nın üzərində cəmləyir. Yerlikaya deyib ki, bu, bizim qiymətləndirməmizdir, əsl həqiqət bütün sübutlar aydınlaşanda ortaya çıxacaq. Qeyd edək ki, baş verən terror aktı ilə bağlı istintaqa başlanılıb. Ədliyyə naziri Yılmaz Tunç bildirib ki, Ankara Cümhuriyyət Baş Prokurorluğu tərəfindən aparılan istintaq prosesinə 1 baş prokuror müavini və 8 dövlət prokuroru təyin edilib.

### Antiterror əməlyyatı keçirildi - 32 hədəf məhv olundu...

Oktyabrın 23-də TUSAŞ-a edilən hücumun ardından MİT Suriya və İraqın şimalında terrorçuların hədəflərini məhv edib. Sözügedən əməliyyatlarda MİT Suriya və İraqda PKK/YPG-nin nəzarətində olan təşkilata məxsus sözdə hərbi, kəşfiyyat, enerji-infrastruktur obyektləri, logistika və sursat anbarları kimi bir çox strateji nöqtələri hədəfə alıb. Verilən açıqlamada qeyd olunub ki, MİT PKK/YPG-yə qarşı planlaşdırılan hədəfə çatana qədər əməliyyatlarını fasiləsiz davam etdirəcək.

Milli Müdafiə Nazirliyi isə İraq və Suriyanın şimalında həyata keçirilən hava əməliyyatında 32 terrorçu hədəfin məhv edildiyini, çoxlu sayda terrorçunun zərərsizləşdirildiyini bildirib. Vurğulanıb ki, PKK/KCK və digər terror ünsürlərinin zərərsizləşdirilməsi yolu ilə xalqa və təhlükəsizlik qüvvələrinə qarşı terror aktlarının aradan qaldırılması və sərhəd təhlükəsizliyinin təmin edilməsi əməliyyatı BMT Nizamnaməsinin 51-ci maddəsindən irəli gələn özünümüdafiə hüququna uyğun olaraq həyata keçirilib.







### Niyə TUSAŞ, niyə BRICS ərəfəsi?

Bununla belə baş verənlər bir sıra suallara yol açıb. Terror hadisəsinin niyə məhz Ərdoğanın ölkəsini tərk edərək BRICS-in Kazanda keçirilən Sammitinə yola düşməsindən sonra baş verməsi üzərində fikirlər irəli sürülür. Bir sıra siyasi təhlilçilər bu fakta xüsusilə diqqətə çəkirlər - unutmayaq ki, Türkiyənin BRICS-ə üzv olmaq istəyini səsləndirməsi, bu istəyin isə təşkilat tərəfindən böyük məmnuniyyətlə qarşılanması olduqca mühüm yeni siyasi mənzərə yaradır. Yaxın Şərqin, eləcə də Avropa ilə Asiyanın qovşağında mühüm siyasi-iqtisadi aktor kimi tanınan Türkiyə BRICS-in gücünə güc qatacaq. Həm iqtisadi, həm də siyasi üstünlükləri təşkilatın bu regiondakı effektivliyini artıracaq. Ən əsası isə, son illərdə yüksək inkişaf yolu keçən müdafiə sənayesi potensialı Türkiyənin qlobal oyunçu kimi mövqelərini möhkəmləndirəcək. Hədəfin məhz TUSAŞ-a istiqamətlənməsi də məhz bu faktorla izah edilir - onsuz da terrorçular TUSAŞ-a mühüm ziyan verə bilməyəcəklərini dəqiq bilirdilər. Bununla belə Türkiyənin ən vacib milli təhlükəsizlik amili sayılan bir obyektə hücum edilməsi "mesaj" sayıla bilər. O ki qaldı, terrorun niyə məhz Prezident Ərdoğanın ölkədən çıxdığı ana hesablanmasına, siyasi ekspertlərin dəyərləndirməsinə görə, bu da həm təzyiq forması kimi, həm də təhlükəsizliyin bir az daha zəif məqamının seçilməsi kimi nəzərdə tutulub.

### Türkiyə terrorla mübarizəsini davam etdirəcək...

Baş verən hadisə son dövrlərdə Türkiyənin terrora qarşı mübarizəni daha da kəskinləşdirməsi, terrora dəstək verən xarici güclərə etdiyi xəbərdarlıqlar fonunda da dəyərləndirilir. Qeyd edək ki, Rəcəb Tayyib Ərdoğanın son dövrlərdəki terrora qarşı mübarizə ilə bağlı açıqlamaları diqqət çəkir - oktyabrın 22-də Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Ankarada hakim Ədalət və İnkişaf Partiyasının funksionerləri qarşısında çıxışı zamanı bildirmişdi ki, biz terrorçuların, quldurların və demokratiya düşmənlərinin qarşısında baş əymirik. Ərdoğan qeyd etmişdi ki, Türkiyənin gələcəyində terrora yer yoxdur: "Bunu hər kəs başa düşməlidir".

Türkiyənin xarici işlər naziri Hakan Fidan isə Ankarada latviyalı həmkarı Bayba Bayje ilə birgə brifinqdə ölkəsinin terror təşkilatlarına qarşı mübarizəni davam etdirmək əzmində olduğunu vurğulamışdı. Beləliklə, terrorla mübarizə Türkiyənin hazırki gündəminin əsas ştrixlərindən sayılır. Bir sıra siyasətçilər edilən xain hücumu məhz bu kəskin bəyanatlarla da əlaqələndirir.

### Baxçalının çağırışı diqqət çəkir...

Paralel olaraq isə son günlərdə Türkiyədə terrora qarşı mübarizə fonunda bir sıra maraqlı çağırışlar da gündəmə gəlmişdi. AK Partiyanın müttəfiqi olan Milliyyətçi Hərəkat Partiyasının sədri Dövlət Baxçalının PKK terror təşkilatının həbsdə olan lideri Abdullah Öcalanla bağlı çağırışı bu mənada seçilir. Baxçalı MHP-nin qrup toplantısında PKK terror təşkilatının həbsdə olan lideri Abdullah Öcalanı nəzərdə tutaraq "onun təcrid olunması aradan qaldırılarsa, Türkiyə Böyük Millət Məclisindəki qrup toplantısında çıxış etməli və terrora son qoyduğunu açıq şəkildə bəyan etməlidir" söyləmişdi.

Məsələyə prezident Ərdoğan da münasibət bildirmişdi. Dövlət başçısı qeyd etmişdi ki, "tarixi fürsət şəxsi hesablamalara qurban verilməməlidir. Biz birlikdə terror və zorakılığın olmadığı bir Türkiyə qurmaq istəyirik". Bu çağırışlar və açıqlamalar qarşıdakı dövrdə mühüm yenilikləri özündə əks etdirə bilərdi. Belə ki, PKK-nın ləğvi Türkiyənin illərdir təhdid edən terrorizm təhlükəsini tam şəkildə aradan qaldırırdı. Bu isə Türkiyənin inkişafında yeni mərhələ yaradırdı. Siyasi ekspertlər bu terror hadisəsinin sülhün və razılaşmaların qarşısının alınması üçün törədildiyini bildirirlər.

### Prezident müraciət etdi...

Prezident Rəcəb Tayyib Ərdoğan TUSAŞ-da törədilən terror aktı ilə bağlı açıqlama yayıb. Dövlət başçısı sosial media hesabından yaydığı açıqlamada "Millətimiz bilməlidir ki, Türkiyəyə uzanan çirkli əllər mütləq qırılacaq", deyə bildirib: "Türkiyə müdafiə sənayesinin lokomotiv təşkilatlarından olan TUSAŞ-a qarşı terror hücumu tam müstəqil Türkiyə" idealının simvolu olan müdafiə təşəbbüslərimizi hədəf alan alçaq bir hücumdur. Terror aktının baş verdiyi ilk andan təhlükəsizlik qüvvələrimiz operativ müdaxilə edərək terrorçuları zərərsizləşdirib. Millətimiz bilməlidir ki, Türkiyəyə uzanan çirkli əllər mütləq qırılacaq. Təhlükəsizliyimizi hədəfləyən heç bir terror təşkilatı öz məqsədlərinə çata bilməyəcək. Hər cür terror təhdidlərinə və onların dəstəkçilərinə qarşı mübarizəmiz qətiyyətlə və çoxmiqyaslı şəkildə davam edəcək. Xain terror aktında şəhid olan qardaşlarımıza Allahdan rəhmət, yaralılarımıza şəfa diləyirəm. Müdafiə sənayemizin qürur mənbəyi olan TUSAŞ-ın fədakar əməkdaşlarına və xalqımıza ən xoş arzularımı çatdırıram".

### Beynəlxalq aləm pisləyir...

Terror aktı beynəlxalq aləm tərəfindən də qınanılıb. NATO-nun Baş katibi Mark Rutte TUSAŞ-ın Kahramankazan obyektlərinə edilən terror hücumunu pisləyib. Rutte, X hesabında etdiyi paylaşımda "Ankaradan gələn xəbərlər narahatlıq doğurur. NATO müttəfiqi Türkiyənin yanındadır" deyə bildirib. O qeyd edib ki, terrorun hər növünü şiddətlə qınayırıq və hadisələrin gedişatını yaxından izləyirik. Rutte məsələ ilə bağlı Prezident Rəcəb Tayyib Ərdoğanla telefon vasitəsilə danışdığını da bildirib və NATO-nun dəstəyini ifadə edib.

BMT-nin Baş katibi Antonio Quterreş də mülki şəxslərə hücumu pislədiyini bildirib. ABŞ-ın yaydığı açıqlamada isə terror aktı qətiyyətlə pislənib. Aİ də baş verənlərdən kədərləndiyini qeyd edib. Yunanıstan hökuməti də baş verən terror aktını qətiyyətlə pislədiyini bəyan edib.

Azərbaycan da baş verənlərə kəskin münasibət bildirib. Azərbaycan XİN qardaş Türkiyədə Türk Aviasiya və Kosmik Sənaye Şirkətində törədilmiş terror aktını qətiyyətlə pislədiyini bəyan edib. "Bu xain terror aktı nəticəsində şəhidlərimizə Allahdan rəhmət, yaralılara şəfa diləyirik. Azərbaycan hər zaman qardaş Türkiyənin yanındadır!"

**P.SADAYOĞLU**

# Vətəndaş cəmiyyətinin fəaliyyəti qənaətbəxşdir, amma...

## QHT-lərin rolu daha da artırılmalıdır!

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə “Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi”nin maliyyə dəstəyi ilə “Vətəndaş cəmiyyəti, hüquqi dövlət quruculuğu” istiqaməti üzrə hazırlanmışdır**

Müxtəlif zamanlarda “Vətəndaş cəmiyyəti” termini ilə qarşılaşırıq. Bu gün vətəndaş cəmiyyəti təşkil olunmuş və ya təşkil olunmamış qrupların geniş və dinamik spektrini əhatə edir. Lakin bu terminin mənasını yəqin ki, az adam izah edə bilər. Vətəndaş cəmiyyəti müxtəlif təşkilatları-icma qruplarını, qeyri-hökumət təşkilatlarını (QHT), həmkarlar ittifaqlarını, xeyriyyə təşkilatlarını, dini əsaslı təşkilatları, peşəkar assosiasiyalar və fondları əhatə edir.

Məlumat üçün bildirək ki, “Vətəndaş cəmiyyəti” termini 1980-ci illərdə siyasi və iqtisadi müzakirələrdə populyarlaşdı. Xüsusilə, Mərkəzi və Şərqi Avropa və Latın Amerikasında qeyri-dövlət hərəkatları ilə əlaqələndirilməyə başlandı. Ölkəmizdə vətəndaş cəmiyyəti termini əsasən QHT sözünə sinonim kimi işlədilir. Bəzən hətta bir cümlədə hər 2 termindən istifadə edilir.

Azərbaycan qununvericiliyində “İctimai iştirakçılıq haqqında” qanunda vətəndaş cəmiyyəti institutları termininin izahı qeyd olunub. Qanunda vətəndaş cəmiyyəti institutları dedikdə - “qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar), media subyektləri, həmkarlar ittifaqları, vətəndaşların təşəbbüs qrupları və bələdiyyələrin məhəllə komitələri” başa düşülür.

**Vətəndaş cəmiyyətində insan faktoru**

“Bakı Qeyri-Hökumət Təşkilatlarının Resurs və Təlim Mərkəzi” İctimai Birliyinin sədri Rauf Zeyni “Yeni Azərbaycan”a açıqlamasında QHT-lərin ölkəmizdə vətəndaş cəmiyyətinin inkişafı üçün üzərinə düşən işlərdən danışıb. Birlik sədrinin sözlərinə görə, vətəndaş cəmiyyətində insan faktoru cəmiyyətin inkişafı və sosial tərəqqi üçün həlledici əhəmiyyətə malikdir: “İnsan amili olmadan vətəndaş cəmiyyəti öz missiyasını yerinə yetirə bilməz. Azərbaycanda vətəndaş cəmiyyəti insanların bilikləri, yaradıcılığı və könüllü iştirakına əsaslanan bir mühitdir. İslahatların uğurla həyata keçirilməsi, cəmiyyətin inkişafı və demokratik proseslərin möhkəmlənməsi üçün insan faktorunun rolu vacibdir.

İnsanların sosial fəaliyyətlərdə aktiv iştirakı ədalətli idarəetmənin təmin olunmasına və hüquq sisteminin güclənməsinə səbəb




olur. İnsan hüquqlarının və azadlıqlarının təmin edilməsi, insanların səmərəli fəaliyyət göstərməsinə şərait yaradır. Bu da vətəndaş cəmiyyətinin gücünü artırır və davamlı inkişafa yol açır. Nəticədə, vətəndaş cəmiyyətində insan amili düzgün yönləndirildikdə, sosial, iqtisadi və mədəni inkişaf daha sürətli olur. Bu amil, vətəndaş cəmiyyətinin mərkəzində duraraq sosial ədalətin təmin edilməsində və inkişafın davamlı olmasında həlledici rol oynayır. Cəmiyyətin tərəqqisi isə məhz insan faktorunun gücləndirilməsi ilə mümkündür”.

**Hüquqi dövlətin əsasları və vətəndaş cəmiyyətinin rolu**

R.Zeyni qeyd edib ki, hüquqi dövlətin əsas prinsiplərindən biri, qanunların aliliyi, insan hüquqlarının qorunması və demokratiyanın inkişafıdır: “Bu dəyərlərin qorunması və inkişafı isə yalnız dövlət qurumlarının deyil, həm də vətəndaş cəmiyyətinin fəal iştirakı ilə mümkündür. Vətəndaş cəmiyyəti hüquqi dövlətin qurulması və inkişafında həyati əhəmiyyət daşıyan bir qüvvədir. Bu işdə QHT-lərin iştirakı islahatların əhatə dairəsini genişləndirir və onların səmərəliliyini artırır. Azərbaycanda da bu proseslərdə vətəndaş cəmiyyətinin rolu önəmlidir. Ölkədə bu cür iştirakçılıq üçün qanunvericilik bazası mövcuddur, QHT sektoru müxtəlif səviyyələrdə bu prosesdə təmsil olunur. Dövlət qurumları isə bu əməkdaşlığı dəstəkləyir, müxtəlif məsələlərdə QHT-lərin təkliflərini nəzərə alır və birgə fəaliyyətlər həyata keçirir. Məsələn, “Açıq hökumətin təşviqinə dair Milli Fəaliyyət Planı” və “Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair Milli Fəaliyyət Planı” kimi mühüm sənədlərin hazırlanmasında QHT-lər fəal iştirak ediblər”.

**Koordinasiya və peşəkarlığın əhəmiyyəti**

R.Zeyninin sözlərinə görə, hüquqi dövlət quruculuğunda vətəndaş cəmiyyətinin effektiv fəaliyyəti üçün hökumətlə QHT-lər arasında koordinasiya çox vacibdir: “İslahatlar zamanı fərqli tərəflər arasında fikir ayrılıqları mümkündür, lakin bu fikir ayrılıqlarının konstruktiv müzakirələr və koordinasiya ilə həll edilməsi prosesin müvəffəqiyyətlə həyata keçirilməsinə zəmin yaradır. Bu koordinasiya islahatlarda geniş iştirak imkanlarını təmin edir və QHT-lərin daha böyük təsir gücünə malik olmasına şərait yaradır.

Bununla yanaşı, QHT-lərin fəaliyyətində ixtisaslaşma və peşəkarlıq vacib elementlərdir. Müvafiq müzakirələrdə iştirak edən QHT-lərin bəzi sahələrdə təcrübəli və peşəkar olmaması, onların cəmiyyətdəki nüfuzuna mənfi təsir göstərə bilər. Buna baxmayaraq, Azərbaycanda vətəndaş cəmiyyəti təşkilatlarının müəyyən sahələrdə yüksək peşəkarlıq nümayiş etdirdikləri hallara da rast gəlinir. Vətəndaş cəmiyyətinin bu sahədə ixtisaslaşması və davamlı peşəkarlıq səviyyəsinin artırılması hüquqi dövlətin inkişafında böyük rol oynayır”.

**Müasir çağırışlar və QHT-lərin rolu**

Birlik sədri qeyd edib ki, bu gün Azərbaycanda vətəndaş cəmiyyəti təşkilatları hüquqi dövlətin qurulmasında əhəmiyyətli rol oynayır, lakin regionda yaranmış yeni geosiyasi reallıqlar da nəzərə alınmalıdır: “Bu reallıqlar təkcə dövlətlərarası münasibətlərə təsir etmir, eyni zamanda, QHT-lərin də öz fəaliyyətlərini müasir çağırışlara uyğunlaşdırmasını tələb edir. QHT-lər dövlətin qarşısında duran yeni problemlərə və cəmiyyətin ehtiyaclarına uyğun olaraq, fəaliyyətlərini yenidən təşkil etməli və yeni yanaşmalar tətbiq etməlidirlər.

Hüquqi dövlətin inkişafında vətəndaş cəmiyyətinin fəaliyyəti qənaətbəxş hesab edilsə də, daha aktiv və səmərəli fəaliyyətə ehtiyac olduğu açıqdır. İslahatların həyata keçirilməsi, hüquq sisteminin təkmilləşdirilməsi və dövlətlə vətəndaş cəmiyyəti arasında əməkdaşlığın gücləndirilməsi proseslərində QHT-lərin rolu daha da artırılmalıdır. Bu yanaşma hüquqi dövlətin daha güclü formalaşmasına və cəmiyyətin maraqlarının daha geniş şəkildə təmin olunmasına kömək edəcək”.

*Yeganə BAYRAMOVA*

# Asiya və Avropa arasında etibarlı körpü

## Azərbaycan Çindən Qərbə doğru böyük iqtisadi potensialın tranzitini təmin edən strateji ölkə kimi mövqeyini gücləndirir

Çinli ekspert, ABŞ-ın Bucknell Universitetinin siyasi elmlər və beynəlxalq münasibətlər üzrə professoru Zhiqun Zhu müsahibəsində bildirib ki, Azərbaycan və Çin arasında iqtisadi əməkdaşlığın potensialı hədsiz dərəcədə böyükdür. Rəsmi Bakı Pekini təkcə dost ölkə kimi deyil, həm də texnoloji tərəqqinin mənbəyi kimi qəbul edir. Ölkələrimiz arasında iqtisadi əməkdaşlıq üçün imkanlar son illərdə genişlənir. Eyni zamanda, iki ölkə nəqliyyat sahəsində əməkdaşlığı daha da gücləndirmək üçün birgə işləyir. Bu güclənən təşəbbüslər isə coğrafi mövqeyinə görə Asiya ilə Avropa arasında mühüm yer tutan Azərbaycanın qitələrarası əlaqəsini artıra bilər.

Z.Zhu onu da əlavə edib ki, Azərbaycan həm də Çinin Avropa ilə artan ticarətində mühüm halqadır. Yəni Şərqdən gələn böyük iqtisadi resursların, mal və xidmətlərin Avropaya çıxarılmasında və əmtəə zəncirinin genişlənməsində Azərbaycan tranzit və əlaqələndirici ölkə kimi strateji ölkədir, qitələr arasında bağlantını təmin edən geoiqtisadi əhəmiyyətə malik təchizatçıdır. Bu, böyük bir qlobal nəqliyyat-logistika arxitekturasında mühüm yer tutan Azərbaycanın gələcək coğrafi potensialının genişlənəcəyinə dair nikbin dəyərləndirmədir. Çinli ekspert bununla ölkəsinin müəllifi olduğu “Bir kəmər, bir yol” layihəsinin ayrılmaz tərkib hissəsi olan Azərbaycanın bölgədə artan strateji mövqeyi və statusuna işarə edir. Eyni zamanda, mürəkkəb geosiyasi proseslər fonunda Azərbaycanın fəal nəqliyyat siyasətini təqdir edir, Pekinlə eyni nəqliyyat landşaftında yer almasının bütün region üçün gələcək faydalarından bəhs etmiş olur.

### Naxçıvanın Orta dəhlizə birləşdirilməsi reallaşır

Prezident İlham Əliyevin 2015-ci ildə Çinə səfəri zamanı “Azərbaycan Respublikası Hökuməti və Çin Xalq Respublikası Hökuməti arasında “İpək Yolu İqtisadi Kəməri”nin yaradılmasının birgə təşviqinə dair Anlaşma Memorandumu”nun imzalanmasından sonra ölkəmiz bu marşrutda öz yerini müəyyənləşdirib. 2019-cu ilin aprelində Pekində keçirilən 2-ci “Bir kəmər, bir yol” Beynəlxalq Əməkdaşlıq Forumunda iştirak edən Azərbaycanın dövlət başçısı Asiya ilə Avropa arasında körpülərin qurulmasına, gələcək rifaha xidmət edən nəqliyyat-logistika qovşaqlarına investisiya yatırdığımızı bəyan edib. Bildirib ki, “açıq dənizə çıxışı olmayan ölkə olmağımıza baxmayaraq, biz Azərbaycanı beynəlxalq nəqliyyat mərkəzlərindən birinə çevirmişik. Bizi qonşularımızla birləşdirən şaxələnmiş dəmir yolu şəbəkəsi yaratmışıq”.

Azərbaycan Şərq-Qərb dəhlizi olan “Bir kəmər, bir yol” layihəsinin ən strateji halqası olan Trans-Xəzər (Orta Dəhliz) nəqliyyat dəhlizi ailəsinin fəal üzvü kimi son illər ərzində bu layihədə strateji rolunu və mövqeyini daha da möhkəmləndirib.

Respublikamız “Bir kəmər, bir yol” layihəsinə qoşulduqdan sonra öz nəqliyyat infrastrukturunu tam yeniləşdirib. Xəzər dənizində ən böyük ticarət qovşağı olan Bakı Beynəlxalq Dəniz Limanının inşa olunması, Bakı-Tbilisi-Qarsın istifadəyə verilməsi, Ələt Azad İqtisadi Zonasının yaradılması, dəmir yolu infrastrukturunun şaxələndirilməsi və modernləşdirilməsi, avtomagistrallar, hava limanları kimi yeni layihələrin icrası da “Bir kəmər, bir yol” təşəbbüsünə xidmət edir.

Azərbaycan 2017-ci ildə istifadəyə verilmiş Bakı-Tbilisi-Qars dəmir yolu xətti ilə faktiki olaraq Yeni İpək Yolunun rentabelli işlək coğrafi qovşaqlarından birinə sahib olub. Çindən ilk konteyner qatarı Xəzər dənizindən keçməklə Azərbaycana gəlib və 2018-ci ildə Bakı-Tbilisi-Qars dəmir yolu vasitəsilə yükdaşınmalarının həyata keçirilməsi bu dəhlizin fəaliyyətə başlamasına beynəlxalq hüquqi status verib.

Hesablamalara görə, “Bir kəmər, bir yol” layihəsi tam işə düşdükdən sonra il ərzində Xəzər dənizi vasitəsilə 15 milyon ton yükaşırma qabiliyyətinə malik olan Bakı Beynəlxalq Dəniz Ticarət Limanının gücü 25-30 milyon tona qədər artırılacaq. Bu dəhlizin ən strateji xətlərindən biri Naxçıvan ilə quru əlaqələrin bərpası və Naxçıvanın Xəzər-Aralıq dənizini birləşdirən körpüyə çevrilməsidir. Naxçıvanla kommunikasiya sisteminin qurulması İpək yolunun məsafə və yüklərin çatdırılma sürəti baxımından əhəmiyyəti daha üstündür. Naxçıvan yolu Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin uzunluğundan 1,7 dəfə, təxminən 343 kilometr az olmaqla daşınmaların xərcini və müddətini azaldır, Mərkəzi Asiya və Avropa arasında ən rentabelli körpü rolunu oynaya bilər.




### “Bir kəmər, bir yol”un yeni dayanacağı - Zəngəzur dəhlizi

Şərq-Qərb layihəsinin ən mühüm həlqəsi isə Orta Dəhlizdir. Bu dəhlizi geosiyasi-iqtisadi əhəmiyyətinə görə, dəyər zənciri də adlandırmaq mümkündür. Orta Dəhliz Çindən gələn yüklərin Qazaxıstandan keçərək Xəzər dənizinə, Azərbaycana və oradan da Gürcüstan və Türkiyə üzərindən Avropadakı son təyinat ölkələrinə çatmasına imkan yaradır. Bu baxımdan dəhlizin və bu infrastrukturun bir hissəsi kimi Bakı-Tbilisi-Qars dəmir yolu böyük əhəmiyyətə malikdir. Bu baxımdan bu dəhlizin üstünlükləri və əhatə coğrafiyası Türk Dövlətləri Təşkilatının (TDT) əsas əlaqələndiricisi kimi çıxış etməyə zəmin yaradır. Dəhlizin trayektoriyası da onun 1 trilyon ABŞ dollarından çox ümumi daxili məhsula (ÜDM) malik olan Türk dövlətlərini birləşdirən bir layihə olduğunu nəzərə alsaq, Azərbaycanın böyükhəcmli ticari-investisiya portfelindən əhəmiyyətli dividentlər əldə edəcəyi şəksizdir. 2020-ci ildən etibarən Orta Dəhliz ilə ayda iki dəfə olmaqla Türkiyədən Çinə müntəzəm konteynerlərin daşınması reallaşdırılıb. Təkcə 2021-ci ildə Çin-Avropa arasında, hər iki istiqamət üzrə ümumilikdə, dəmir yolu ilə 84,9 milyard dollarlıq yük daşınması həyata keçirilib. 2020-2022-ci illərdə bu dəhlizdə nəql edilmiş yükün ümumi həcmi 350-550 min ton arası olsa da, 2023-ci ildə bu rəqəm 4,5 milyon tona qədər artıb.



Yəni, bu o deməkdir ki, Türk Dövlətləri Orta Dəhlizin potensial imkanlarından böyük valyutalar əldə edərək iqtisadiyyatlarına əlavə dəyər qata biləcək.

Azərbaycanın yaratdığı yeni reallıqlar fonunda bu coğrafiyanın logistika xəritəsi də dəyişməkdədir. Zəngəzur dəhlizi Çin və Mərkəzi Asiya ölkələri ilə Avropa ölkələri arasında nəqliyyat əlaqələrinin şaxələndirilməsini təmin edəcək ən qısa dəhlizdir. Bu dəhlizinin istifadəyə verilməsi Azərbaycan üzərindən illik olaraq təxminən 35 milyon ton yükün daşınmasına imkan verə bilər.

Zəngəzur dəhlizinin “Bir kəmər, bir yol” layihəsinə reinteqrasiyası artıq reallıq kimi qəbul olunur və rəsmi Pekin də bu xətti Yeni İpək Yolunun əsas həlqələrindən biri hesab edir. Bu məsələ Çinin ən yüksək dövlət rəsmiləri ilə müzakirə olunub. 2021-ci il noyabrın 28-də Aşqabadda keçirilən İqtisadi Əməkdaşlıq Təşkilatının XV Zirvə Toplantısının yekununda tərəfdaş ölkələr tərəfindən yekun bəyannamə imzalanıb ki, bu, Mərkəsi Asiya-TransXəzər-Avropa marşrutunun əsas həlqəsinə çevrilən Zəngəzur dəhlizinə qoşulmağa razılığın ifadəsidir.

Göründüyü kimi Azərbaycan və Çin yeni nəqliyyat, enerji və tranzit marşrutlarının yaradılması və şaxələndirilməsi ilə Şərq-Qərb təhlükəsizlik və əməkdaşlıq dəhlizinin yeni formatını yaradırlar.

### 3 milyard dolları aşan iqtisadi dövriyyə...

Azərbaycan öz ərazi bütövlüyünü təmin etdikdən sonra Pekin ölkəmizin bölgədə yaratdığı yeni reallıqlara uyğun iqtisadi-siyasi münasibətlərin yeni formatını müəyyən etməklə əlaqələri ən yüksək səviyyəyə çatdıran qərarlar qəbul edib. 2024-cü il iyulun 3-də Şanxay Əməkdaşlıq Təşkilatının Astanada keçirilən Zirvə toplantısı çərçivəsində imzalanan “Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında strateji tərəfdaşlığın qurulması haqqında Birgə Bəyannamə” münasibətlərin siyasi, iqtisadi, humanitar, ictimai, mədəni elm və digər sahələrdə uzunmüddətli əməkdaşlığına dərin yol açır. Birgə Bəyannamənin əsas bəndlərindən biri iki ölkə arasında ticarət-iqtisadi əlaqələrin artırılmasıdır. Hazırda bu Asiya nəhəngi ilə Azərbaycan arasında iqtisadi-ticari, investisiya, nəqliyyat-kommunikasiya və s. sahələrdə münasibətlərin hərarəti durmadan artır. İki ölkə arasında qarşılıqlı iqtisadi anlaşmaların artması davamlı şəkildə mal və sərmayə dövriyyələrinin həcminin də yüksəlməsinə səbəb olub, iqtisadi əlaqələr 2010-cu ildən sonra ən yüksək səviyyəyə çatıb. 2015-ci ildə isə qarşılıqlı mal dövriyyəsinin həcmi 500 milyon dolları ötüb. Belə ki, 2015-ci ildə ticarət dövriyyəsi 561 milyon dollar, 2016-cı ildə 975 milyon dollar, 2017-ci ildə 1 milyard 300 milyon dollar, 2018-ci ildə 1 milyard 310 milyon dollar, 2019 və 2020-ci illrdə 2,1 milyard dollar olub. 2022-ci ildə iki ölkə arasında ticarət dövriyyəsi 2,2 milyard dollar, 2023-cü ildə isə 3,1 milyard dollar təşkil edib. 2024-cü ilin yanvar-sentyabr aylarında iki ölkə arasında mal mübadiləsinin həcmi 2,7 milyard dollara yaxın olub və ilin sonuna bu rəqəmin 3,5 milyard dolları ötəcəyi gözlənilir.

### ŞƏT Azərbaycan-Çin strateji tərəfdaşlığını yeni mərhələyə qaldırır

Mövcud iqtisadi rəqəmlər Çinin Azərbaycanın ən böyük idxal tərəfdaşı olmasını, gətirilən mal və xidmətlərin dəyərinin illik 3 milyard dolları ötdüyünü təsdiqləyir. Ümumilikdə, Çin Azərbaycanın 5 ən böyük ticarət tərəfdaşından biri olmaqla 4-cü yerdə qərarlaşır. İmkanlar isə bundan bir neçə dəfə böyükdür.

İki ölkə arasında imzalanmış Birgə Bəyannamənin ən mühüm detallarından biri Azərbaycanın Şanxay Əməkdaşlıq Təşkilatı (ŞƏT) çərçivəsində Çinlə siyasi, iqtisadi, nəqliyyat-tranzit təmaslarının əlaqələndirilməsi, ölkəmizin bu nəhəng təşkilatda təmsilçiliyinin təmin edilməsidir. Birgə Bəyannamə faktiki olaraq Azərbaycanın bu qlobal təşkilatlarda layiqli ölkə iştirakçılığına hüquqi təminatlar yaradır. ŞƏT-də təmsil olunmaq Azərbaycan-Çin strateji tərəfdaşlığını yeni mərhələyə qaldırmaqla, həm ikitərəfli, həm də regional və beynəlxalq çərçivədə təmasların artırılması, mübadilələrin intensivləşdirilməsi və əməkdaşlığın dərinləşməsinə dərin zəmin yaradır.

Beləliklə, Azərbaycan və Çin arasında ikitərəfli münasibətlərin inkişafı regional və qlobal səviyyədə yeni imkanları üzə çıxarmağa səbəb olacaq. Çinli ekspert Zhiqun Zhunun vurğuladığı kimi iki ölkə arasında iqtisadi əməkdaşlığın potensialı hədsiz dərəcədə genişdir və müəyyən edilmiş yeni iqtisadi hədəflər, habelə transkontinental nəqliyyat zəncirində daşınmaların Azərbaycan üzərindən Avropya səmtlənməsi ticarət dövriyyəsinin də böyüməsində əsaslı rol oynayacaq.

*ELBRUS CƏFƏRLİ*

# 168 min hektar ərazi minalardan təmizlənib

## İşğaldan azad olunan ərazilərdə 1,5 milyon mina olduğu ehtimal edilir

Azərbaycan dünyada mina terrorundan ən çox əziyyət çəkən ölkələrdən biridir. 30 illik işğal dövründə Ermənistan xeyli sayda hərbi cinayətlər törədib ki, bunların sırasında mina terroru əsas yerlərdən birini tutur. Ermənistanın mina terror hələ də davam edir. Qeyd edək ki, oktyabrın 24-də “Minalar Əleyhinə Azərbaycan Kampaniyası” İctimai Birliyinin təşkilatçılığı ilə Azərbaycanda mina qurbanlarına həsr olunmuş dəyirmi masa keçirilib.

“Minalar Əleyhinə Azərbaycan Kampaniyası” İctimai Birliyinin sədri Hafiz Səfixanov Azərbaycanda mina qurbanlarının sayına diqqət çəkib: “Təəssüf ki, Azərbaycanda mina qurbanlarının sayı artmaqda davam edir. Avropa ölkələri, beynəlxalq təşkilatlar Azərbaycanın mina probleminə etinasız yanaşırlar”. O qeyd edib ki, bu istiqamətdə maarifləndirmə tədbirlərinin sayı artırılmalıdır: “Mina qurbanlarının böyük bir qismi qanunda nəzərdə tutulan hüquqlarından xəbərsizdir. İctimai birliyimiz ölkənin bir çox bölgələrində maarifləndirici tədbirlər, seminarlar keçirir. Bu, mina qurbanlarının öz hüquqlarından xəbərdar olması istiqamətində vacib addımdır”.

Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin (ANAMA) idarə rəisi Ramil Əzizov işğaldan azad edilən bölgələrin minalardan təmizlənməsi ilə bağlı statistikanı açıqlayıb: “Vətən müharibəsindən bu zamana qədər 168 min hektar ərazi minalardan təmizlənib. Mina partlayışı səbəbindən dünyasını dəyişən insanların sayı ötən illərlə müqayisədə 60 faiz azalıb. Ancaq təəssüf ki, hələ də mina partlayışı səbəbindən dünyasını dəyişən insanlar var”.

Onun sözlərinə görə, işğaldan azad olunan ərazilərdə 1,5 milyon mina olduğu ehtimal edilir: “Təmizlənmiş ərazilərdən 161 min mina aşkarlanıb. Bu, beynəlxalq problemdir. Düşünürəm ki, növbəti illərdə minadan təmizləmə aktual məsələ olaraq qalacaq”.



Respublika Reabilitasiya Mərkəzinin direktoru Nabat Abdulova mərkəzdə mina terrorundan əziyyət çəkən şəxslərin ailə üzvlərinə də dəstək göstərildiyini deyib. Onun sözlərinə görə, Azərbaycanda son 2 ildə minadan əziyyət çəkən 172 nəfərə dəstək göstərilib: “Qeyd etdiyim müddət ərzində 109 nəfərə ambulator yardım göstərilib. Hazırda minadan əziyyət çəkən 111 nəfər qeydiyyata alınıb və onların 91 nəfərinə əlillik təyin edilib”.

Milli Məclisin komitə sədri Fazil Mustafa isə deyib ki, mina terrorunu həyata keçirənlər məsuliyyətə cəlb edilməlidirlər. Onun fikrincə, bu reallaşarsa, dünya üçün də nümunə olar: “Mina terrorundan əziyyət çəkən insanlar üçün sığorta mexanizmləri müəyyən edilməlidir. Onların yalnız tibbi-psixoloji deyil, maddi yardıma da ehtiyacı var. Elə insanlar var ki, onlar məsuliyyətsizlikdən, diqqətsizlikdən yox, öz işini, vəzifəsini həyata keçirərkən bədbəxt hadisə nəticəsində mina qurbanı olub, xəsarət alıb. Həmin şəxslərə yardım üçün təkliflər, qanunvericilikdə dəyişikliklər olmalıdır. Dəyirmi masada bu istiqamətdə səsləndirilən təkliflərin parlamentə təqdim edilməsi effektiv ola bilər”.

Millət vəkili Vüqar Bayramov isə bildirib ki, 2026-cı ilin sonuna qədər azad olunmuş ərazilərdə 140 min sakin məskunlaşacaq. O qeyd edib ki, 2025-ci ildə Böyük Qayıdış prosesi çox aktiv şəkildə həyata keçiriləcək: “Bu səbəbdən ərazilərin minalardan təmizlənməsi çox vacib məsələdir. Təkcə Milli Məclisdə təmsil etdiyim Füzuli rayonunda minaların sayı 80 minə yaxındır. Bu problem əhalinin həyatı, yaşayışı üçün ciddi təhlükədir”.

Dəyirmi masada minalara qarşı fəaliyyəti həyata keçirən və mina qurbanlarına yardım edən Azərbaycanın rəsmi qurumlarının nümayəndələri, o cümlədən Azərbaycan Minatəmizləmə Agentliyinin (ANAMA), Milli Məclis üzvləri, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin, Ombudsman Aparatının nümayəndələri, minadan zərərçəkənlər, QHT-lərin nümayəndələri minalanmış ərazilərin təmizlənməsi istiqamətində əldə olunan nailiyyətlər və qarşıda duran vəzifələrlə bağlı müzakirələr aparıblar.

*Nardar BAYRAMLI*

# Rusiya və Türkiyə prezidentlərinin görüşü...

## Görüşdə Cənubi Qafqaz regionunda vəziyyət də müzakirə olunub

**Kazan şəhərində keçirilən BRICS sammiti çərçivəsində Rusiya və Türkiyə dövlət başçılarının görüşü olub. Görüş təxminən bir saat davam edib. Görüşdə Rusiya Prezidenti Vladimir Putin bildirib ki, Rusiya-Türkiyə münasibətləri mehriban qonşuluq və konstruktiv xarakter daşıyır. O, Türkiyə ilə BRICS arasında sıx əməkdaşlığın qurulmasının vacibliyini qeyd edib.**

### Putin: Ölkələrimiz arasında enerji sektorunda strateji əhəmiyyətli əlaqələr qurulub

Rusiya Prezidentinin sözlərinə görə, Moskva ilə Ankara arasında enerji sektorunda strateji əhəmiyyətli əlaqələr qurulub: "Rusiya Türkiyənin etibarlı, zamanla sınaqdan keçmiş təbii qaz tədarükçüsüdür. Ötən il "Mavi axın" və "Türk axını" boru kəmərləri ilə 20,5 milyard kubmetr qaz ixrac edilib". Putin Türkiyədə beynəlxalq qaz qovşağının yaradılmasına hazırlıqların davam etdiyini bildirib. "Həmişə olduğu kimi, görüşümüzdə ölkələrimiz üçün xüsusi əhəmiyyət kəsb edən regional məsələlər, Suriyada sülh prosesi və Transqafqazda vəziyyətin normallaşması da müzakirə mövzusudur. Təbii ki, Ukrayna böhranı ətrafında vəziyyət barədə sizə məlumat verməyə hazıram", - deyən V.Putin Rusiya və Türkiyənin Yaxın Şərqlə bağlı prinsipial mövqelərinin eyni olduğunu da vurğulayıb.

Rusiya lideri Ankarada Türk Aviasiya və Kosmik Sənaye Şirkətində törədilən terror aktını pisləyib və başsağlığı verib.

### Ərdoğan: Ən qısa zamanda sizi Türkiyədə görmək istəyirəm

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan isə rusiyalı həmkarına dəvətə görə təşəkkür edib və Putinlə yenidən görüşməkdən məmnun olduğunu bildirib. Rusiyanın xarici işlər naziri Sergey Lavrovun "3+3" regional əməkdaşlıq platforması ilə əlaqədar ötən həftə İstanbulda olduğunu xatırladan Ərdoğan, "İndi mən sizi əziz dostum, ən qısa zamanda Türkiyədə görmək istəyirəm" deyib.

Ərdoğan Türkiyənin Rusiya ilə əlaqələrinin gücləndiyini və inkişaf etdiyini və bunun hər sahədə davam etdirilməsi üçün səylərin davam etdiyini bildirib. Türkiyə ilə Rusiyanın Suriya məsələsində yaxın koordinasiyasının bütün tərəflərin marağında olduğunu deyən prezident Ərdoğan, Türkiyənin PKK/YPG başda olmaqla bütün terror təşkilatlarına qarşı mübarizədə qərarlı olduğunu bildirib və bu cəhdlərə birlikdə qarşı çıxmağın vacibliyinə işarə edib.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan başsağlığı üçün təşəkkür edib və terror aktında 4 nəfərin həlak olduğunu, 14 nəfərin yaralandığını bildirib. O, Rusiya liderinin Türkiyəyə səfər edəcəyini gözlədiyini bildirib. Türkiyə Prezidentinin sözlərinə görə, ölkəsi ilə Rusiya Federasiyası arasında banklararası əməliyyatların normallaşdırılması istiqamətində səylər davam edir.

### Türkiyə qaz habına çevrilir

Qeyd edək ki, Rusiya Prezidenti Vladimir Putinin Türkiyəyə səfəri hələ bu ilin əvvəlində nəzərdə tutulsa da, müəyyən səbəblərdən reallaşmayıb. Rəcəb Tayyib Ərdoğan isə sonuncu dəfə ötən ilin sentyabrında Rusiyaya səfər etmişdi. Soçidə Rusiya Prezidenti Vladimir Putin ilə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan arasında mühüm məsələlər müzakirə olunmuşdu. Bu görüşdə Rusiya Prezidenti bildirmişdi ki, "Akkuyu" Atom Elektrik Stansiyasının tikintisi ilə Türkiyə nüvə dövlətləri sırasına daxil olub. Putin əlavə edib ki, Rusiya bundan sonra da Türkiyəni qazla təmin etmək və Türkiyə vasitəsilə üçüncü ölkələrə qaz ixrac etmək niyyətindədir.

Dünyada baş verən mürəkkəb proseslər fonunda Rusiya-Türkiyə yaxınlaşması bölgənin xeyrinədir. Məlumdur ki, Qərb ölkələri Ukrayna problemi ilə əlaqədar Rusiyaya ağır sanksiyalar tətbiq edib. Digər tərəfdən, Rusiya ilə iqtisadi əlaqələri davam etdirən ölkələrə də sanksiyalara qoşulmaq üçün təzyiqlər edilir. Regionun, bütövlükdə, dünyanın ən güclü dövlətlərindən biri olan Türkiyə öz milli maraqlarına uyğun siyasət yeridir. Bu da xüsusilə, ABŞ-da qıcıqla qarşılanır. Belə ki, ABŞ Rusiya ilə iqtisadi əlaqələrdən çəkinmək, sanksiyalara qoşulmaq üçün Türkiyəyə müəyyən təzyiqlər göstərməyə çalışır. Lakin nəzərə almaq lazımdır ki, hər bir dövlətin öz maraqları var. Müstəqil dövlətlər məhz öz milli maraqlarına uyğun siyasət yürüdürlər. Türkiyə də məhz belə dövlətlərdəndir. Əgər rəsmi Ankara ABŞ-ın istəyinə uyğun siyasət yürüdərsə, bu, Türkiyənin iqtisadiyyatına çox ciddi mənfi təsir göstərə bilərdi. Ona görə də, Türkiyə dövlət maraqları naminə öz siyasətində israrlıdır.

Rusiya ilə Ukrayna arasında məlum münaqişə başlayanadək Avropanın enerji təchizatı böyük dərəcədə şimal qonşumuzdan reallaşdırılan ixrac hesabına təmin olunurdu. Sonu görünməyən gərginliklər, o cümlədən də qarşılıqlı sanksiyalar fonunda fərqli mənzərə yaranıb. Avropanın neftə olan tələbatının ödənilməsində şimal qonşumuz 25 faiz paya malik idi. Rusiya Avropa üçün həm də ənənəvi olaraq optimal qaz təchizatı mənbəyi sayılırdı. Bu kimi reallıqlar fonunda Rusiya qazının Türkiyə üzərindən Avropaya ötürülməsi perspektivi mövcuddur. Bu ölkə əlverişli coğrafi mövqeyi ilə Avropa və Rusiyanın qonşuluğunda yerləşir. Hazır nəql infrastrukturuna malik olması Türkiyəyə əlavə şans qazandırır. Qardaş ölkə böyük həcmlərdə Rusiya qazını Avropa bazarlarına daşımaq üçün şaxələndirilmiş nəql marşrutlarına malikdir. Bu marşrutlar "Türk axını", TANAP və TAP-dır. Bu layihə Türkiyəni Avrasiyada qaz habına çevirir. Beləliklə, Rusiya və Türkiyəni "Akkuyu" AES-in tikintisindən tutmuş, qaz qovşağı layihəsinə qədər bir çox layihələr birləşdirməyə davam edir. Bu əməkdaşlıq hər iki tərəf üçün faydalıdır.




### İki ölkənin əməkdaşlığı bölgədə təhlükəsizliyin təmin olunması üçün faydalıdır

Nəzərə almaq lazımdır ki, Türkiyə indiyədək Rusiya-Ukrayna münaqişəsində sırf barışdırıcı mövqedən çıxış edib. Qardaş ölkənin və onun liderinin bu mövqeyi qlobal miqyasda, BMT səviyyəsində yüksək dəyərləndirilir. Türkiyənin bu yöndə təşəbbüsləri müharibə aparan ölkələr tərəfindən də təqdir olunur. Rəsmi Ankara bölgədə sabitliyin təmin olunması üçün müntəzəm olaraq həm Kreml, həm də Kiyevlə təmasdadır. Türkiyə böyük dövlətdir və bölgədə baş verən proseslərə təsir imkanları var. Son illər Türkiyə regional güc kimi özünü təsdiq edib. Yaxın Şərq böhranı ilə bağlı rəsmi Ankaranın oynadığı rol beynəlxalq birliyə çox yaxşı məlumdur. Hazırda isə Rusiya-Ukrayna müharibəsinin tezliklə bitməsi üçün Türkiyənin böyük fəallığı göz önündədir. Qeyd etdiyimiz kimi, Türkiyənin təşəbbüslərinə müharibənin tərəfi olan hər iki ölkə etimad göstərir. Nəzərə alaq ki, ABŞ və Avropa İttifaqı ölkələri, eləcə də Böyük Britaniya Ukraynaya fəal dəstək verir. Bu da Rusiya tərəfindən qəbulolunmaz hesab edilir. Rusiyanı dəstəkləyən ölkələr isə Ukrayna tərəfindən qəbul olunmur. Amma qardaş Türkiyə iki ölkə arasında müharibənin bitməsi üçün heç bir maraq güdmədən, səmimi olaraq çalışır. Türkiyə müharibədən əziyyət çəkən insanlara humanitar yardım göstərir, eləcə də onun vasitəçiliyi ilə münaqişə zonalarında dinc əhali üçün humanitar dəhlizlər açılıb. "Taxıl dəhlizi" haqqında sazişin imzalanmasında və bir müddət icra olunmasında da Ankaranın rolu xüsusi qeyd edilməlidir.

Hər iki ölkə Cənubi Qafqaz, eləcə də Suriya məsələsində də fəal müzakirələr aparır ki, bu da bölgədə sülh və təhlükəsizliyin təmin olunması baxımından faydalıdır. Bütün bunların fonunda Rusiya-Türkiyə əməkdaşlığı böyük əhəmiyyət kəsb edir.

***Nardar BAYRAMLI***

# Qərb bəyan etdiyi prinsiplərə qarşı...

## Gürcüstanda keçiriləcək parlament seçkilərinə təsir cəhdləri

**Oktyabrın 26-da Gürcüstanda növbəti parlament seçkiləri keçiriləcək. 2017-ci ildə ölkə Konstitusiyasına edilmiş əlavə və yeniliklərdən sonra ilk dəfə parlament 5 faizlik baryer ilə müəyyənləşəcək. 2020-ci ildə olduğu kimi, bu seçkilərdə də 25 faizlik gender kvotası gözləniləcək. Bu tələbə görə, siyasi partiyalar öz partiya siyahılarına hər dördüncü yerdə qadınları daxil etməlidirlər.**

### 3 milyon 508 min 294 seçici 3111 məntəqədə səs verəcək...

Bu arada Gürcüstanın seçki administrasiyası vahid seçici siyahısı üzərində işləri başa çatdırıb. Seçicilərin ümumi sayı 3 milyon 508 min 294 nəfərdir. Məlumata görə, 3 milyon 113 min 747 seçici elektron texnologiyalardan istifadə etməklə seçkilərdə iştirak edəcək. Bu il ilk dəfə olaraq 135 min 922 gənc seçkilərdə iştirak etmək imkanı qazanıb. 64 min 238 seçici köçürmə qutusu üçün seçki idarəsinə müraciət edib. Ümumilikdə 3111 seçki məntəqəsi seçicilərə xidmət göstərəcək. Seçki ilə bağlı 3044 məntəqə formalaşdırılıb ki, onun da 13-ü müstəsna hallar üçün nəzərdə tutulub. 12 məntəqə penitensiar müəssisələrdə, 1 məntəqə isə psixi sağlamlıq mərkəzində formalaşdırılb. Xaricdə isə 42 ölkənin 53 şəhərində 67 seçki məntəqəsi yaradılıb.

### Qərb "razılaşmır"...

Seçkilərə cəmi bir gün qalsa da, siyasi gərginliklər səngimək bilmir. Xüsusilə, Qərbin nəzarətində olan bəzi siyasi qüvvələrin, vətəndaş cəmiyyəti subyektlərinin seçki prosesini sabotaj etmək cəhdləri müşahidə olunmaqdadır. Siyasi ekspertlər seçkilər öncəsi Qərbin davranışlarını adekvat saymır. Xüsusilə, təzyiq formasına və ritorikasına əsaslanan davranışlar azad seçki prinsipləri ilə üst-üstə düşmür. Qərb açıq şəkildə seçkilərə təsir göstərməyə çalışır.

Ümumiyyətlə, Gürcüstanda son zamanlarda baş verənlər birmənalı qarşılanmır - bir zamanlar Qərbin təsirinin daha çox hiss olunduğu ölkədə son dövrlərdə proses fərqli istiqamət alıb - özünün milli maraqlarını ön plana çıxaran Gürüstan hökuməti ölkədə xarici təsirləri azaltmaq üçün ciddi fəaliyyətə keçib. "Xarici təsirin şəffaflığı haqqında" və "Ailə dəyərlərinin və yetkinlik yaşına çatmayanların müdafiəsi haqqında" qanunların imzalanması, Qərbin çaxnaşma yaratmaq cəhdinin qarşısının alınması kimi addımlar göstərir ki, Gürcüstan hakimiyyəti özünün müstəqil siyasi xəttini formalaşdırmağa çalışır. Bu isə təbii ki, Qərbi qıcıqlandırır - parlament seçkisi öncəsi ölkədə belə bir abhavanın hakim kəsilməsi Qərbin planları ilə uyğun gəlmir. Təsadüfi deyil ki, ABŞ və Avropa son bir neçə ayda Gürcüstana qarşı demək olar ki, bütün mümkün sanksiyaları tətbiq etməkdən çəkinməyib. Vaşinqton Gürcüstana maliyyə yardımı proqramını, Avropa İttifaqı isə Gürcüstan Müdafiə Nazirliyinin maliyyələşdirilməsini dayandırıb. Eyni zamanda, qanun layihəsinin müəlliflərinin ABŞ-a girişi məhdudlaşdırılıb. Paralel olaraq Gürcüstanın Avropa İttifaqı ilə vizasız rejiminin də ləğvi aktuallıq daşıyır.

Yaranan mənzərə isə Qərbin bəyan etdiyi azad seçki, insan hüquqlarüı prinsipləri ilə üst-üstə düşmür. Bu daha çox seçkinin nəticələrinə və vətəndaşların seçiminə təsir etmək kimi anlaşılır.



### Ramil İskəndərli: Qərbin mövqeyi qəbulolunmazdır

Məsələ ilə bağlı fikirlərini bölüşən Milli QHT Forumunun İdarə Heyətinin sədri Ramil İskəndərli son dövrlərdə Qərbin bütövlükdə Cənubi Qafqaz regionuna münasibətdə fərqli standartlar yürütdüyünün müşahidə olunduğunu bildirib. Gürcüstanda oktyabrın 26-da baş tutacaq parlament seçkilərinin nəticələrinə təsir göstərmək üçün Qərbin apardığı təbliğatlar, hazırlıqlar isə düşündürücüdür: "Bütün ölkələrdə olduğu kimi, Gürcütanda da parlament seçkilərinin nəticələrini ölkə vətəndaşlarının mövqeyi müəyyənləşdirir. Qərbin bu məsələdə tutduğu mövqe isə anlaşılan deyil. Hələ may ayından etibarən Qərb dairələrinin Gürcüstanın daxili işlərinə qarışmaq cəhdlərinin şahidi olmuşuq. Gürcüstan parlamentinin qəbul etdiyi "Xarici təsirin şəffaflığı haqqında" qanun layihəsi ətrafında yaradılan süni ajiotaj bunu təsdiqləyir. Həmin vaxt Qərb bu qanuna qarşı küçə etirazları təşkil edir, hətta bəzi dövlətlərin rəsmi şəxsləri belə həmin aksiyalarda iştirak edirdilər. Bir sözlə, açıq təzyiq və təsir kampaniyası aparılırdı. Proses inkişaf etdikcə və parlament seçkiləri yaxınlaşdıqca bu təzyiqlərin təsiri daha çox hiss olunmağa başladı. ABŞ tərəfindən Gürcüstana tətbiq olunan bəzi sanksiyalar və qadağalar, Aİ-nin fərqli maliyyə axınlarını dayandırması birbaşa seçkiqabağı proseslərlə əlaqədardır. Onlar bu qanunun qəbulunu əllərində əsas tutaraq hətta deyərdim ki, Gürcüstana qarşı sabotaj həyata keçirir, vətəndaşların azad seçim etməsinə təsir göstərmək istəyirlər. Bu, yolverilməzdir. Başqa vaxt azad seçkidən, mövqenin azad ifadə edilməsindən bəhs edən Qərbin Gürcüstana nəzərən tutduğu mövqe qəbulolunmazdır".

### Gürcüstan vətəndaşları öz azad seçimlərini edəcəklər

MQF İdarə Heyətinin sədri qeyd edib ki, Qərb bu məsələdə hər zaman olduğu kimi, ona bağlı olan "yumşaq güc vasitələrindən" - bəzi vətəndaş cəmiyyəti subyektlərindən də istifadə etməyə çalışır. "Həmin "vətəndaş cəmiyyəti strukturlarının" maliyyə mənbələrini araşdırdıqda hər şey ortaya çıxır. Bu mənbələr arasında hər kəsə tanış olan fondlar və mərkəzlər yer alır. Hansı ki, həmin fondlar fərqli ölkələrdə "insan hüquqları" adı altında fərqli siyasi oyunlar oynayırlar. Hətta başqa-başqa ölkələrdə bu fondların nəzarətində olan siyasətçilər, QHT nümayəndələri də Gürcüstan seçkilərinə münasibətdə Qərbin tezislərini təkrarlayırlar. Özlərinə yaxın media strukturlarında vətəndaşların mövqeyinə təsir etmək üçün ictimai rəyi manipulyasiya etmək istəyirlər. Bir sözlə, mərkəzləşdirilmiş şəkildə iş aparılır. Amma Gürcüstan cəmiyyəti reallığı görür və dəyərləndirir. Qərbin yalnız öz maraqlarından çıxış etməsi reallığı bütün konturları ilə ortadadır. Bu tək Gürcüstana münasibətdə özünü əks etdirmir - bütövlükdə regiona nəzərən, Qərb eyni mövqedən çıxış edir. Gürcüstanın müstəqil, suveren hüquqlu bir dövlət olması Qərbin maraqları ilə uzlaşmır. Nəticə etibarı ilə, yuxarıda bəhs etdiyimiz qanun layihəsinə qarşı etirazlar da bundan qaynaqlanır. Qərb anlayır ki, onun bütün kartları açılıb və qeyri-adekvat niyyəti tam şəkildə ifşa olunub. Qərbin müdaxiləsi ilə davranan ölkələrə nəzər salsaq, oradakı vəziyyət bütün suallara cavab verir - məsələn, Ukraynanı silahlandırmaqla və müharibəyə təhrik etməklə yaradılan mənzərə göz önündədir. Eynilə Ermənistanı silahlandırmaqla sülhü ləngitmək, yeni müharibə təhdidi yaratmaq niyyəti bütün detalları ilə ortadadır. Beləliklə, Qərb nəinki Cənubi Qafqazda, bütövlükdə postsovet regionunda sabitləşdirici deyil, təhrikçi qismdə çıxış edir", -deyən R. İskəndərli əlavə edib ki, Gürcüstan cəmiyyəti ictimai sektorda şəffaflığın daha da artırılması üçün atılan addımları dəstəkləyir: "Bir neçə gün öncə Tbilisidə "Gürcüstan və Azərbaycanda QHT-lərin ictimai iştirakçılıqla bağlı informasiya mübadiləsi" adlı tədbir keçirildi. Həmin tədbirdə öz fikirlərimizi bölüşdük. Eyni zamanda, gürcüstanlı həmkarlarımızın Qərbin Gürcüstanı qarışdırmaq niyyətinin fərqli aspektlərdən arqumentlərini dinlədik. Fikrimcə, Qərb öz niyyətinə çata bilməyəcək və Gürcüstan vətəndaşları öz azad seçimlərini edəcəklər, milli maraqlarının qorunması üçün lazımi addımları atacaqlar".

***P.İSMAYILOV***

# Ukraynanın NATO-ya gedən yolu bağlıdır

**Ukraynanın NATO-ya üzv olmaq ümidləri getdikcə azalır. Rusiya ilə müharibədən əvvəl və müharibə dövründə bu barədə Qərb dövlətləri tərəfindən dəfələrlə vəd verilsə də, yerinə yetirilmir. Bugünlərdə Avropanın "Politico" nəşri adı açıqlanmayan dörd ABŞ və NATO rəsmisinə istinadən məlumat yayıb ki, bir sıra NATO ölkələri, o cümlədən ABŞ və Almaniya Ukrayna prezidenti Volodimir Zelenskinin müraciətlərinə müsbət cavab verməyə və Rusiya ilə birbaşa münaqişədən çəkinərək Kiyevi dərhal alyansa dəvət etməyə hazır deyil.**

## Müharibə şəraitində olan ölkə alyansa üzv qəbul oluna bilməz

### "Politico": Almaniya və ABŞ Kiyevin bloka üzv olmasında tərəddüd edir

Onların məlumatına görə, Almaniya və ABŞ Kiyevi bloka dəvət etməkdə ilk tərəddüd edənlər sırasındadır. "Belçika, Sloveniya və İspaniya kimi ölkələr ABŞ və Almaniyanın arxasında gizlənirlər, onlar Ukraynanın NATO-ya üzv olmasını istəmirlər", - deyə "Politico" alyansın adının açıqlanmayan nümayəndəsindən sitat gətirib. Macarıstan və Slovakiya da Ukraynanın üzvlüyünə qarşıdır.

Nəşrin digər həmsöhbətinin sözlərinə görə, blok ölkələri Ukraynanın üzvlüyünü yalnız hipotetik şəkildə dəstəkləyir və bu, reallaşarsa, fəal müqavimət göstərməyə başlayacaq. Qəzet yazır ki, alyansın əsas üzvləri "Rusiya ilə müharibəyə cəlb olunacaqlarından narahat olduqları üçün" Kiyevi NATO-ya dəvət etməyi gecikdirir. "Politico"nun mənbəsinin sözlərinə görə, ABŞ prezidenti Co Baydenin administrasiyası hesab edir ki, Avropa İttifaqı ölkələrinin əksəriyyəti yaxın gələcəkdə Ukraynanın NATO-ya daxil olmasını dəstəkləməyəcək.

Qeyd edək ki, V.Zelenskinin elan etdiyi qələbə planında Ukraynanın NATO-ya üzvlüyü əsas yer tutur. Bir neçə gün öncə Ali Radada çıxışı zamanı Zelenski deyib ki, Rusiya onilliklər ərzində Avropadakı geosiyasi qeyri-müəyyənlikdən, yəni Ukraynanın NATO üzvü olmamasından istifadə edib: "İndi Ukraynanın NATO-ya dəvət edilməsi faktı sülh üçün həqiqətən də fundamental amil ola bilər. Biz başa düşürük ki, NATO-ya üzvlük bugünün deyil, gələcəyin işidir". Onun fikrincə, dəvət qətiyyətdən başqa heç nə tələb etməyən güclü qərardır. "Buna görə də bu, qələbə planının başlanğıc nöqtəsidir və qətiyyətliliyin təsdiqidir. İndi qeyd-şərtsiz dəvət vacibdir. Bu, əminlikdir - tərəfdaşların Ukraynanın təhlükəsizlik arxitekturasındakı yerini əslində necə gördüyünün təzahürüdür", - deyə Zelenski vurğulayıb.

### Kiyevə yalnız vəd verilir

Yeri gəlmişkən, NATO-nun yeni Baş katibi Mark Rutte də oktyabrın 1-də bu vəzifənin təhvil alınması mərasimində çıxışı zamanı Ukraynaya açıq dəstəyini ifadə edib. O, Ukrayna müharibəsini və alyansın müdafiə xərclərinin artırılmasını prioritet hesab etdiyini də vurğulayıb: "Prioritetlərimiz dəyişməz olaraq qalır. Biz Ukraynanın müstəqil demokratik dövlət kimi qalmasını təmin etməliyik. Müdafiə və çəkindirmə imkanlarımız baxımından xərcləri artırmalı, kollektiv müdafiə gücümüzü genişləndirməliyik".

Eyni zamanda, M.Rutte Ukraynanın özünümüdafiə hüququnu dəstəklədiyini vurğulayıb. Baş katib hesab edir ki, təhlükəsizliyin təmin olunması üçün dünyanın müxtəlif bölgələrində NATO tərəfdaşlıqları inkişaf etdirilməlidir: "Ukraynanın layiqli yeri NATO-dadır. Mənim ikinci prioritetim Ukraynaya dəstəyimizi gücləndirmək və onu NATO-ya daha da yaxınlaşdırmaqdır. Çünki güclü, müstəqil Ukrayna olmadan Avropada davamlı təhlükəsizlik ola bilməz. Üzərimizə düşəni etməliyik". Rutte Ukraynaya dəstəyini təsdiqləmək üçün NATO-nun Baş katibi kimi fəaliyyətinin üçüncü günündə - oktyabrın 3-də Kiyevə səfər etdi. NATO yeni Baş katibinin Ukaynaya dəstəyin artırılması ilə bağlı mövqeyi V.Zelenskini cəsarətləndirən amillərdən biridir. Buna görə də, o, qələbə planında ölkəsinin alyansa üzvlüyünü xüsusi qeyd edir.




### Ukrayna Qərbin nağıllarına inanmamalıdır

Lakin Ukrayna lideri oktyabrın 17-də qələbə planını təqdim etmək üçün Brüsseldə olarkən M.Ruttedən alyansa üzvlüklə bağlı konkret dəstək ala bilmədi. Həmin gün NATO müdafiə nazirlərinin toplantısında M.Rutte deyib ki, Ukrayna gələcəkdə NATO-ya daxil olacaq və alyansın 33-cü və ya 34-cü üzvü olacaq. "Hazırda Ukraynanın 33-cü üzv olacağı görünür", - deyən Rutte qeyd edib ki, nəzəri olaraq başqa bir ölkə Ukraynadan əvvəl üzv ola bilər. Nəzərə alaq ki, rəsmi olaraq Bosniya və Herseqovinanın gələcəkdə NATO-ya üzv olacağı bildirilib. Lakin Ukraynaya vəd verilsə də, hələ namizədlik statusunu da ala bilməyib.

Müttəfiqlərin hazırda Ukraynanın NATO-ya daxil olması üçün "körpü" qurmağa çalışdıqlarını qeyd edən Rutte deyib ki, "konkret nə vaxt" sualı olarsa, indi ona cavab verə bilmərəm".

Müdafiə nazirlərinin görüşündə Rusiya ilə müharibədə Ukraynaya dəstəyin davam etdirilməsi də müzakirə olunub. Böyük Britaniyanın müdafiə naziri Con Healey önümüzdəki həftələrdə və aylarda bu dəstəyin artırılmasının lazım olduğunu vurğulayıb. Lakin nazir təfərrüatları açıqlamayıb.

Rəsmi Vaşinqton da bəyan edib ki, "hazırda Ukraynanın NATO-ya üzvlüyü üçün heç bir şərait yoxdur". Məlumdur ki, Rusiya Ukraynanın NATO-ya daxil olmasına qəti etiraz edir və bu niyyətdən imtinanı sülh danışıqlarının başlanması üçün öz şərtlərindən biri adlandırır. NATO-nun Baş katibi Rutte onu da bildirib ki, hazırda məqsəd Ukraynanın Rusiya ilə sülh danışıqlarını "güclü mövqedən" aparmasına şərait yaratmaqdır. Göründüyü kimi, illər öncə Ukraynaya NATO üzvlüyü vəd edən ABŞ və digər Qərb dövlətləri bu ölkəni Rusiya ilə müharibəyə təhrik etdi. Halbuki NATO-nun nizamnaməsinə əsasən müharibə şəraitində olan ölkə alyansa üzv qəbul oluna bilməz. Yəni, hazırkı şəraitdə Ukraynanın NATO-ya gedən yolu bağlıdır. Ona görə də, rəsmi Kiyev Qərbin belə nağıllarına inanmamalıdır.

*N.BAYRAMLI*

# Yaxın Şərqdə yeni eskalasiya olacaqmı?

Bir ildən artıqdır ki, Yaxın Şərqdə müharibə davam edir. 384 gündür davam edən qarşıdurmada həyatını itirənlərin sayı 42 min 800 nəfərə yaxındır. Yaralıların sayı isə 100 min 300-ü ötüb. Genişmiqyaslı əməliyyatlara səbəb olan HƏMAS və Hizbullaha isə böyük zərbə vurulub - qruplaşmaların aparıcı liderləri və komandirləri məhv edilib. İlk baxışdan, hazırki mənzərə regionda sülhün bərqərar olması üçün münbit sayılsa da, bir sıra siyasi ekspertlər bunun əksini düşünür - onlar, eskalasiyanın genişlənmə ehtimalını irəli sürürlər. Ekspertlər razılaşırlar ki, dünyanın və regionun aparıcı aktorları "böyük müharibə"də maraqlı deyillər - lakin münaqişənin uzadılması qarşıdakı dövrdə onun nəzarətsiz eskalasiyaya çevrilmə risklərini artırır.

## Vaşinqton ən pis ssenariyə hazırlaşır

### Qalib tərəfin hədəfləri dəyişib?

Həsən Nəsrullahın, Haşim Səfiəddinin və Yəhya Silvanın ölümünün HƏMAS-a və Hizbullaha güc itkisinə başa gəlməsi sirr deyil. Artıq İsrail döyüşdə qalib tərəf belə elan edilib - ABŞ-ın Dövlət katibi Antoni Blinkenin Yaxın Şərq turnesi çərçivəsində İsrailə səfəri və verdiyi bəyanatlar sanki triumfu xatırladırdı. ABŞ xarici siyasət idarəsinin rəhbəri açıqlamasında bildirmişdi ki, "məqsədlərə nail olunub". Məqsəd isə bəlli idi. Bölgəyə nəzarət edən hərbi qruplaşmalar demək olar ki, sıradan çıxarılıb. Beləliklə, Qəzzada müharibənin davamına heç kim "ehtiyac görmür".

Amma İsrailin hədəfləri dəyişmiş kimi görünür - bir il öncə HƏMAS-ın İsrailə raket zərbələri ilə başlanan müharibədən ötən bir ildə eskalasiyanın coğrafiyasının genişlənməsi üçün "səbəblər" və "əsaslar" ortaya çıxıb. Ən azından müəyyən epizodik anlarda belə olsa, İran bu prosesə daxil olub...

### ABŞ müharibədən "yayındırır"?

İl ərzində bir neçə dəfə İran ilə İsrail arasında lokal toqquşmalar diqqət çəkib. Aprel ayında və oktyabrın 1-də baş vermiş "raket mübadiləsi" ortaya bəzi suallar çıxarıb. Bu barədə bir azdan...

Hələlik isə, verilən son bəyanatlara diqqət yetirək. Blinken açıqlamasında bildirir ki, "Qazanılan nailiyyətləri davamlı strateji uğura çevirməyin vaxtıdır". Görüləsi iki iş var: girovları evə qaytarmaq və bundan sonra nə olacağını anlayaraq müharibəni bitirmək".

Bu çağırışda gizlənən kodu açarkən siyasi mütəxəssislər amerikalı siyasətçinin İsraili "imkanlarına görə hərəkət etməyi" məsləhət gördüyünə əmindirlər. ABŞ Təl-Əvivə hazırki nailiyyətindən illərlə davam edən "Qəzza savaşı"nda strateji şəkildə yararlana biləcəyini "xatırladır" - hətta "məsləhətlərin" içində belə yeni müharibə haqda danışmır. Tam əksinə, cavabın yumşaqlığının prosesə xeyrindən bəhs edir.




İsrailin müdafiə naziri Yoav Qalant isə "Hatzerim" aviabazasında ölkənin pilotları və hava qüvvələrinə müraciət edərkən "İrana hücumumuzdan sonra hər kəs hazırlıq və təlim prosesində nə qədər böyük iş gördüyünüzü biləcək" deyir. Bir il əvvəl bizə qalib gəlmək və hücum etmək arzusunda olanlar ağır bədəl ödədilər və onlar artıq bu xəyal ilə yaşamırlar"- deyə Qallant əlavə edir.

Ortada təzad yaranır - ABŞ İsrailə İrana eskalasiyanın böyüməyəcəyi tərzdə cavab verməyi məsləhət gördüyü halda, İsrail qəti addımlardan bəhs edir. Deməli ki...

Beləliklə, ABŞ İsraili qarşıdakı mərhələdə səhv etməməyə çağırır. HƏMAS və Hizbullaha qarşı mübarizdə özünün müttəfiqini tam dəstəkləyən Vaşinqton deyəsən, İran məsələsində "düşünür". Dövlət katibi İsraili İranın 1 oktyabr raket hücumuna cavab olaraq "daha çox eskalasiyadan" çəkinməyə çağırır. "İsrailin daha da gərginləşməyə səbəb olmayacaq şəkildə cavab verməsi lazımdır", - deyə bildirir.

Bir sıra hərbi ekspertlər isə Blinkenin bu çağırışını Körfəz ölkələrinin mövqeyi ilə əlaqələndirir. İsrailin İran ərazisinə irimiqyaslı hava zərbəsi endirməsi logistik çətinliklərlə üzləşir. Hazırkı şəraitdə, ərəb ölkələrində təyyarələrin yanacaqla doldurulması mümkün deyil - İranın xarici işlər naziri Əraqçı da təsdiqləyib ki, qonşu dövlətlər öz ərazilərindən və hava sahələrindən İrana hücum üçün istifadəyə imkan verməyəcəyini bildirib. ABŞ isə öz növbəsində, aprel ayında İranın raket hücumundan sonra münaqişəyə birbaşa müdaxilədən ehtiyat edərək yanacaqdoldurma çənlərini verməkdən imtina edib. Beləliklə, iddia və tələb uzlaşır - hər

### Müharibənin miqyası necə dəyişəcək?

iki tərəf anlayır ki, İsrail Qəzza qələbəsini tam şəkildə Livana proyeksiya etməyə çalışarsa, itkiləri böyüyəcək. Hərbi əməliyyatlar davam edəcəyi təqdirdə İran və bəzi digər ölkələrin Livana hər cür yardım göstərəcəyi istisna deyil. Belə olan halda bu və ya digər şəkildə ABŞ da münaqişəyə cəlb edilir və tərəfə çevrilir. Beləliklə, müharibənin Livanda davam etməsi ABŞ-ı və İranı bu prosesə cəlb etmək ehtimalını gücləndirir.

### "Yaxın Şərqdən tabut gəlmir"

ABŞ isə bunu istəmir - Amerikada məşhur bir deyim var: "Yaxın Şərqdən tabut gəlmir". Amerika onsuz da Yaxın Şərqdə mövcudluğunu böyük hərbi itkilər riski altında qoruyur. Vaşinqtonun regionla bağlı siyasətində baş verən sürətli dəyişikliklər də bəzən bu tezisə əsaslanır - hətta siyasi ekspertlər düşünür ki, ABŞ Yaxın Şərqdə birbaşa müharibələrdən yayınmaq niyyətini gizlətmir. Amerika siyasətçilərinin hədəflədiyi əsas şey düşməni döyüş meydanından kənarda "məğlub etməkdir" - Vaşinqton poliqon savaşlarını mümkün qədər öz müttəfiqlərinə həvalə etməkdə peşəkardır. Onlar hər zaman olduğu kimi, "səyləri əlaqələndirmək", "imkanları təmərküzləşdirmək" və beləliklə prosesə "arxadan rəhbərlik etmək" arzusundadırlar.

Nəticə etibarı ilə, ABŞ arzusunda olmasa da, Yaxın Şərqdə eskalasiyanın sərhədlərinin böyüməsinin qarşısını almaqda hələlik aciz kimi görünür. Blinkenin İordaniya səfərini heç bir səbəb göstərmədən təxirə salması və oktyabrın 25-də ərəb dövlətlərinin xarici işlər nazirləri ilə görüşmək planı qurması da bundan qaynaqlanır. Vaşinqton ən pis ssenariyə hazırlaşır...

# Kainatın mühərriki ehtiraslar

## Corc Qordon Bayronun "Don Juan" mənzum romanı haqqında

Bayron klassik Avropa ədəbiyyatının sonbeşiyidir. Onun otuz altı illk natamam ömrü qoca qitədə həm ictimai-siyasi tarixin, həm də fikir tarixinin yeniləndiyi dövrə düşür. Fəlsəfi-estetik baxımdan klassik şairlərlə bir cəbhədə təmsil olunsa da, Bayronun istər düşüncə sistemində, istərsə də üslubi dinamikasında yeni epoxaya keçidin əlamətləri aydın sezilir. "Manfred", "Qabil" kimi dramatik poemalarında o, Dante ("İlahi komediya"), Milton ("İtirilmiş cənnət"), Höte ("Faust") kimi ustadlardan qalma cığırla gedib dini-fəlsəfi misteriya janrına əl atırsa, "Don Juan" mənzum romanında biz onu realizmə, satirik janra xeyli yaxınlaşan görürük. Yəni həm bir sənətkar, həm bir mütəfəkkir kimi onun bir əli ötən on səkkizinci, bir əli gələn on doqquzuncu yüzillikdəydi.

Dövr elə bir dövr idi ki, zamanı çalxalayan qanlı inqilabların, qitəni silkələyən qlobal savaşların fonunda Bayronun yaşıdları qol çırmayıb yeni ədəbi-fəlsəfi tendensiyaların təməlini atırdılar: Stendal söz sənətini oturuşmuş ədəbi ehkamların, daşlaşmış mənzum forma qəliblərinin monopoliyasından qurtarmaq üçün nəsrə, romana təzə nəfəs verirdi, Şopenhauer klassik fikir avtoritetlərinə, ələlxüsus Hegel adlı bütə qarşı qiyama qalxıb fəlsəfəni həm ideya-məzmun, həm də forma-üslub baxımından yeni məcraya yönəltmək üçün tənha cəngavər sayağı döyüşürdü. Ancaq onların populyarlığı Bayrona baxmış xeyli yubandı, çünki Bayron yeniliyə, yeni dünyanın qurulmasına nə qədər meyilli olsa da, özündən sonrakı fəlsəfi-estetik düşüncəyə, ədəbi zövqə böyük təsir göstərsə də, eynən yeni yüzildə ondan hələ yeddi-səkkiz il də artıq yaşamış ustadı Höte kimi mahiyyətcə on səkkizinci əsrin şairiydi; Stendal, Şopenhauer isə üzünü gələcək nəsillərə tutmuşdu, sözünü təzə əsrdə mayalanası beyinlərə hesablamışdı, buna görə də onların yaradıcı metodlarının populyarlaşması, prinsiplərinin aktuallaşması yubandı. Bu mənada ondan günəgün beş il əvvəl dünyaya gəlmiş Stendal da, ondan cəmisi bir ay sonra doğulmuş Şopenhauer də fəlsəfi-estetik yaşına görə Bayrondan bir xeyli cavandır.

***

Populyarlıqdan danışdıqsa, bunu da deyək ki, Bayronun öz dövründəki şöhrəti söz-sənət tarixində tək-tək adamın məşhurluğuyla müqayisəyə gələr. İlk iri həcmli əsəri olan "Çayld-Haroldun səyahətnaməsi" poemasının birinci-ikinci nəğmələri işıq üzü görər-görməz poemanın iyirmi iki yaşlı müəllifi Londonun, tezliklə həm də bütün Avropanın şeir-sənət generalları sırasında fəxri yer aldı. Təkcə bunu demək yetər ki, əsərin on dörd min nüsxəsi bircə günün içində satılıb qurtarmışdı. O dövr üçün bu, çox böyük, fantastik göstəriciydi.

Bayronun populyarlığı o dərəcəyə çatmışdı ki, onun hətta axsamağını da yamsılayırdılar, hərçənd o özü anadangəlmə qüsuruyla hər zaman mübarizə aparır, psixologiyasına uşaqlıqdan zədələr vurmuş fiziki çatışmazlığını gizləmək üçün dəridən-qabıqdan çıxır, əzələ yarışında heç kimdən zəif olmadığını sübuta yetirməkdən ötrü cürbəcür idman sahələrində böyük hünərlər göstərir, xüsusən də üzgüçülükdə ağlasığmaz rekordlara imza atırdı. Gözəl kübar qadınlar son dərəcə yaraşıqlı, bir o qədər də istedadlı gənc şairin görüşünə getməyi özləri üçün müqəddəs ziyarət sayırdılar.

***

Bayronun əsərlərini ömürlüyündən ayrı nəzərdən keçirmək mümkün deyil. Onun poemalarının, demək olar, bütün baş qəhrəmanları avtobioqrafik obrazlardır. Bu mənada Bayron əsərlərinin həm müəllifi, həm də aparıcı personajıdır. Onun uzun sürməyən həyatı da möhtəşəm bir bədii əsər kimi yaşanıb; bu əsərin fəsilləri təkcə parlaq uğurlardan, gözqamaşdırıcı şan-şöhrətdən, ilham fırtınalarından ibarət deyil, onun səhifələrində ağlı-qaralı ləkələr, bədbinlik, iflas, rüsvaylıq, qəriblik, könüllü sürgün də var.

Əgər ona bir personaj - öz ömrünün baş qəhrəmanı kimi baxsaq, aləmə demonik nur saçan bu gəncin ətli-canlı vücudunda Şekspirin bəxtsiz oğlu Hamletdən də nişanələr tapa bilərik, onu Şopenhauerin nə istədiyini bilmədən müdam sağa-sola əsən çılğın iradəsinə, Ştirnerin öz qəlbinin istəyindən, öz ekzistensiyasının diktəsindən başqa heç bir qanun, heç bir norma tanımayan bircəsinə, təkrarsız təkcəsinə də tay tuta bilərik, üzünü görməyəcəyi Turgenevin bəlkə də bayronizmin təsiriylə yaratdığı, eynən şairin özü kimi şəhərlərə, ölkələrə sığmayan, yad ölkənin, özgə millətin savaşında zavala gələn Rudinə də qohum çıxara bilərik. Təəssüf ki, bu dünya hələ dahiləri sağlığında xoşbəxt eləyə biləcək həddə kamilləşməyib.

Uzağa getməyək, elə rus ədəbiyyatının dünya ədəbiyyatı səviyyəsinə ucalmasında Bayronun birbaşa iştirakı var. Böyük rus poeziyasının iki coşqun qaynağının ikisi də - Puşkin də, Lermontov da dahi ingilis şairinə pərəstiş eləyirdi, onu təqlid eləyirdi. Puşkinin Onegini də, Lermontovun Peçorini də bayronik qəhrəmanlardır, necə deyərlər, onun şinelindən çıxıblar. Bu böyük rus şairləri də öz növbələrində cahanşümul rus nəsrini yaratmış dahilərin yetişməsinə, rus dilinin ədəbiyyat dili kimi formalaşmasına çox güclü təsir göstəriblər. Dolayısıyla götürəndə belə çıxır ki, Bayronun azman rus yazıçılarını, o cümlədən Qonçarovu, Turgenevi, Dostoyevskini, Tolstoyu yetirmiş ədəbi mühitin yaranmasında misilsiz xidməti olub. Bu, hələ onun bir köynək uzağa sıçrayan təsiridir, gör bu çılğın ingilis qitənin içərilərində nə tufanlar qoparıb!

***

Klassik Avropa ədəbiyyatının artıq çoxdan mifik təfəkkür faktına çevrilmiş, folklor səviyyəsinə ucalmış, başlıca arxetiplər sırasında əbədi yer tutmuş dörd parlaq obrazı var - Hamlet, Don Kixot, Faust, bir də Don Juan. Dini şüur üçün Adəm, Nuh, İbrahim, Yusif, Davud, Süleyman, Musa, İsa kimi peyğəmbərlərin obrazı nədirsə (ona görə obraz deyirəm ki, onların gerçək varlığı haqqında heç bir tarixi sənəd yoxdur), ədəbi düşüncə baxımından da bu surətlər həmən gücdədir. Adını tutduğum obrazlar Qərb insanını yedəyində bu günəcən gətirib çıxarıb, indi də eyni minvalla gələcəyə aparır.

Bir möhtəşəm obraz bəzən bütöv bir epoxanın yaranmasına təkan verir, neçə qat insan nəslinin beynini mayalayır, həyatını, davranışlarını şərtləndirir. Məsələn, Nitsşe Dostoyevskidən çox təsirlənmişdi, ancaq onun ideal saydığı obrazlardan yox, məhz böyük yazıçının şeytani qəhrəmanlarından. Dostoyevskinin fövqəlinsanlıq iddiasına düşən şöhrət divanələrini sözün hərfi mənasında qəhrəmana çevirməklə Nitsşe özündən sonrakı bütöv bir epoxanın taleyinə fərman verdi. Çoxu filosofları bu kimi məsələlərdə təmizə çıxarmağa çalışsa da, Almaniyada (dolayısıyla həm də bütün Avropada) totalitar düşüncənin, faşizmin kök atmasında Nitsşenin (eləcə də Hegel başda olmaqla bəzi klassik alman mütəfəkkirlərinin) rolu danılmazdır.

Yaxud başqa bir misal: Tomas Mann iyirminci yüzillikdə iki möhtəşəm arxetipə yeni həyat, yeni nəfəs verdi: "İosiflə qardaşları" tetralogiyasında Allahla "işgüzar" əlaqəyə girən bəsirətli Yusif peyğəmbərə, "Doktor Faustus" romanında Şeytanla müqavilə bağlayan günahkar Fausta. Dövran dəyişdikcə qədim obrazlar yeni qiyafədə, təzə libasda dönə-dönə zühura gəlir. Bu isə o deməkdir ki, həmin obrazlar, Yunqun təbiriylə desək, bəşəriyyətin ortaq təhtəlşüurunda özünə əbədi yuva qurub. Don Juan da belə obrazlardan biridir.

***

Bayrondan əvvəl də, sonra da donjuanlıq mövzusunda xeyli əsər yazılıb. Bunlardan ən çox tanınanı ispan şairi Tirso de Molinanın on yeddinci əsrin birinci yarısında yazılmış pyesi, ondan da məşhuru eyni yüzilliyin ikinci yarısında yazıb-yaratmış böyük fransız dramaturqu Jan-Batist Molyerin "Don Juan" komediyasıdır.

Molina rahib idi, onun insanları günahlardan daşındırmaq məqsədi güdən əsəri tərbiyəvi əhəmiyyət daşıyırdı. Molyer isə klassisizm cərəyanının öncül nümayəndələrindən idi, bu cərəyanın oturuşmuş etik-estetik kanonları vardı, özünü klassisizm məktəbinin müdavimi sayan sənətkarlar həmin kanonlara ciddi əməl eləyirdilər, cızdıqları çərçivəyə sığmayan müəllifləri kulta çevirmirdilər, bu səbəbdən hətta Şekspiri də böyük sənətkar saymırdılar. Prinsipcə, əsərlərində insan xislətinin mənfi cəhətlərini (xəsislik, fırıldaqçılıq, şübhəbazlıq, şəhvətpərəstlik...) hədəfə alan Molyerin də pyesini tərbiyəvi əsər saya bilərik. Klassisizm dövrünün etik-fəlsəfi idealları sonrakı maarifçilik əsrinin ideallarına çox yaxındır - Molyer də Don Juanın timsalında sümsük bir arvadbazın, yalançı aşiqin, fırıldaqçı şəhvət düşkününün aqibətini göstərib.



*F.Uğurlu*

davamı növbəti sayımızda

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**"Yeni Azərbaycan" qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

"Azərpoçt" MMC PDM- 0125984955, 0552004544
"Azərmətbuatyayımı" ASC - 0124411991, 0124404694
"Səma" MMC - 0125940252, 0503336969
"Pressİnform" MMC - 0703400100, 0504560835
"Qaya" MMC - 0125667780, 0502352343
"Qasid" MMC - 0124931406, 0124938343
F.Ş.Ruhid Hüseynov - 0124349301, 0505357898
"Türküstan Media Group" MMC – 050 241-48-23
"Region Press" MMC – 055 316-79-01
"Ziya LTD" MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**







# Mədəni irsimizə yenə göz dikdilər...

## "Basqalı" rəqsi "erməni şalaxosu" kimi təqdim edilib

"Basqalı" Azərbaycan rəqsi və "Bu qala, daşlı qala" Azərbaycan xalq mahnısının hüquqları Gürcüstanın bəzi televiziya kanalları tərəfindən pozulub. Bu barədə Əqli Mülkiyyət Agentliyi məlumat yayıb.

Qeyd olunub ki, ötən il noyabrın 3-də Gürcüstanın 1TV.GE telekanalında yayımlanmış "Natalia & Datuna" şou proqramında Xalq artistimiz Aftandil İsrafilovun müəllifi və ifaçısı olduğu məşhur "Basqalı" rəqsi ilə müşayiət olunan mahnı "Somxuri şalaxo"- "erməni şalaxosu" kompozisiyası kimi təqdim olunub.

Bu il sentyabr ayının 14-də isə Gürcüstanın digər televiziya kanalı İMEDİ-də yayımlanan "Çveni şou" proqramında da "Basqalı" Azərbaycan rəqsinə (musiqisinə) yazılmış və Dodona Namoradzenin ifa etdiyi mahnı yenə "erməni şaloxosu" adı altında təqdim olunub.

### Erməni oğurluğunun növbəti nümunəsi

Qeyd edilib ki, bu faktlar Gürcüstanın müxtəlif televiziya kanalları vasitəsilə Azərbaycanın mədəni irs nümunələrinə, o cümlədən Azərbaycan musiqisinə münasibətdə növbəti erməni oğurluğunun nümayişi təsəvvürü yaradır və ciddi narahatlıq doğurur:

"Bu ilin 24 may tarixində "Rustavi" telekanalında yayımlanan "Paatas da Nikas şou" proqramında isə "Bu qala, daşlı qala" adlı Azərbaycan xalq mahnısı "Sənə sevgi söz verirəm" adı altında gürcü dilində təqdim olunub. Amma mahnının Azərbaycan xalq mahnısı olduğu qeyd edilməyib. "Bayatı-Şiraz" muğamı əsasında yaradılmış bu mahnı bütün Yaxın Şərqdə məşhurdur və çox geniş yayılıb. Hətta Türkiyədə əhalinin əksəriyyəti şənliklərdə bu mahnını çalıb-oxuyur və onu Azərbaycan xalq mahnısı kimi ifa edirlər".

### Bern Konvensiyasının tələbləri pozulub...

Agentlikdən həmçinin vurğulanıb ki, "Rustavi" telekanalında "Bu qala, daşlı qala" adlı Azərbaycan xalq mahnısı "Sənə sevgi söz verirəm" adı altında gürcü dilində təqdim olunarkən Azərbaycanın və Gürcüstanın üzv olduqları ÜƏMT-nin "Ədəbi və bədii əsərlərin qorunması haqqında" Bern Konvensiyasının 15-ci maddəsinin 4-cü hissəsinin tələbləri nəzərə alınmayıb:

"Yuxarıda göstərilən faktlar eyni zamanda ÜƏMT-nın Müəlliflik hüququna dair Müqaviləsinin, habelə "Azərbaycan Respublikası Hökuməti ilə Gürcüstan Hökuməti arasında əqli mülkiyyətin qorunması sahəsində əməkdaşlıq haqqında Saziş"in tələblərinin də pozulması deməkdir".

### SAKPATENTİ-nin rəhbərliyinə məktub göndərilib

Əqli Mülkiyyət Agentliyi yuxarıda göstərilənlərlə əlaqədar Gürcüstan Milli Əqli Mülkiyyət Mərkəzi SAKPATENTİ-nin rəhbərliyinə məktub göndərib: "Məktubda Gürcüstanın 1TV.CE, İMEDİ və "Rustavi" telekanallarında Azərbaycana məxsus olan "Basqalı" rəqsinin "Somxuri şalaxo" - "erməni şalaxosu" kimi təqdim edilməsinin və "Bu qala, daşlı qala" adlı Azərbaycan xalq mahnısından istifadə olunarkən onun mənbəyinin və mənsub olduğu xalqın adının göstərilməməsinin səbəblərinin araşdırılaraq müvafiq tədbirlərin görülməsi, bu barədə Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinə məlumat verilməsi və bir daha belə halların təkrarlanmaması üçün məsələnin daim nəzarətdə saxlanılması xahiş edilib. Həmçinin bildiririk ki, hüquq pozuntularını təsdiq edən müvafiq materiallar da SAKPATENTİ-yə təqdim edilib".



### "Arşın mal alan"dan "Tut ağacı"nadək...

Yuxarıda qeyd olunan hallar, milli musiqimizin ermənilər tərəfindən mənimsənilməsi ilə ilk dəfə qarşılaşmırıq. Məlumdur ki, ermənilər tarix boyu xalqımızın mədəni irsinə qənim kəsilib, onu mənimsəməyə və özününküləşdirməyə çalışıblar. Milli mətbəximizi, musiqimizi, musiqi alətlərimizi oğurlayaraq öz adlarına çıxarmaq onlar üçün adi hala çevrilib. Araşdıranda məlum olur ki, ən məşhur erməni bəstəkarların əsərləri, mahnıları məhz Azərbaycan bəstəkarlarının əsərlərinin, melodiyasının, eləcə də musiqisinin plagiatıdır.

Məsələn, bir zamanlar ermənilərin fəxrlə ifa etdikləri, A. Xaçaturyana məxsus olan məşhur "Yerevan" mahnı-himnidir. Hələ sovet dövründə Xaçaturyanın əsərləri, mahnıları ətrafında müzakirələr gedirdi. Çünki yazdıqları bütövlükdə Azərbaycan musiqi irsini təşkil edirdi və məşhur musiqişünaslar onun həm Azərbaycan xalq mahnılarını, həm də aşıq poeziyasını tamamilə təkrar etdiyini bildirirdilər.

Uzun illər fəxrlə oxuduqları "Yerevan" mahnı-himninə gəldikdə isə, mahnı 1948-ci ildə yazılıb. Lakin mahnını dinlədikdə məlum olur ki, musiqi tamamilə Üzeyir Hacıbəyovun 1913-cü ildə yazdığı "Arşın mal alan" operettasından "Əsgərin mahnısı"nın eynisidir. Bunu zamanında sovet musiqişünasları da təsdiqləyib. Tarixdən o da məlumdur ki, Hacıbəyovun bu operettası dəfələrlə dünyanın bir çox ölkələrində, o cümlədən ABŞ-da nüfuzlu konsert salonlarında erməni əsəri kimi təqdim edilib.

Belə nümunələrdən biri Azərbaycanın məşhur xalq mahnısı "Tut ağacı boyunca"dır. Mahnı dəfələrlə ermənilər tərəfindən oğurlanaraq, özününküləşdirilib. Bundan başqa, ermənilər "Sarı gəlin", "Aman Tello" və onlarla digər mahnılarımızı ifa edərək öz adlarına çıxırıblar.

### Nə ilk, nə də sondur...

Qeyd edək ki, bu kimi hallar, ermənilərin ilk belə əməli deyil və sonuncu da olmayacaq. Onlar nəinki torpaqlarımızı, maddi-mənəvi dəyərlərimizi, tarixi abidələrimizi öz adlarına çıxmağa, musiqimizi də mənimsəməyə çalışırlar. Musiqi sərhəd tanımır deyirlər, çünki onun dili yoxdur. Gözəl musiqi bütün bəşəriyyətin məhsulu kimi qiymətləndirilir. Coğrafiyası geniş, dinləyici kütləsi ümumbəşəri olur. Lakin ermənilər çoxdan qanunları pozub, müəllif hüquqlarını tapdalayıblar. Görünür, haylar üçün müqəddəs heç nə yoxdur. Necə deyərlər, "Utanmasan oynamağa nə var ki...".

***Yeganə BAYRAMOVA***

# Notr-Dam kilsəsinə giriş ödənişli olacaq?

Fransanın mədəniyyət naziri Raşida Dati açılışdan sonra Paris Notr-Dam kilsəsini ziyarət etmək üçün turistlərdən 5 avro alınmasını təklif edib.

Nazir bu barədə "Le Figaro" qəzetinə müsahibəsində deyib. Onun sözlərinə görə, simvolik ödənişdən əldə olunan vəsait ölkənin dini irsini qorumağa yönəldilə bilər.

Xatırladaq ki, 2019-cu ilin aprel ayında Notr-Dam kilsəsində güclü yanğın olub. Kilsənin beş il davam edən genişmiqyaslı yenidənqurmadan sonra dekabrın 8-də açılacağı gözlənilir.

Nazir həmçinin bildirib ki, fransızlar və Avropa İttifaqından kənar ölkələrdən gələn turistlər üçün Fransa muzeylərinə və abidələrinə giriş qiymətlərinin fərqləndirilməsi zəruridir. Yəni onlar daha çox pul ödəməlidir.

Notr-Dam kilsəsi Parisin ən görməli yerlərindən biridir. 2019-cu ildəki yanğından əvvəl onu ildə 14 milyona yaxın turist ziyarət edirdi.



## *İdman*

### Azərbaycanda cüdo məşqçiliyinin inkişafı ilə bağlı Anlaşma Memorandumu imzalanıb



Azərbaycan Cüdo Federasiyası (ACF), Azərbaycan İdman Akademiyası və Böyük Britaniyanın Hertfordşir Universiteti arasında cüdo təhsilinin inkişafını hədəfləyən Anlaşma Memorandumu imzalanıb.

ACF-dən AZƏRTAC-a verilən məlumata görə, bu əməkdaşlıq sayəsində Azərbaycan İdman Akademiyasında cüdo məşqçiliyi üzrə təhsil alan tələbələr üçün müasir tələblərə uyğun təhsil proqramının hazırlanması və tətbiq edilməsi təmin ediləcək. Nəticədə ölkədə cüdo təhsilinin keyfiyyətinin yüksəldilməsinə, məşqçilik sahəsində daha yüksək standartların təmin edilməsinə nail olunacaq.

R.Rəsullu bildirib ki, bu əməkdaşlıq ölkədə cüdonun hərtərəfli inkişafını təmin etmək istiqamətində mühüm addımdır: "Federasiyanın 2024-2028-ci illər üzrə inkişaf strategiyasının əsasında cüdo idman növü üzrə ən müasir tələblərə cavab verən məşqçilərin yetişdirilməsi və onların inkişafı dayanır. Bu təşəbbüslə biz Azərbaycanın cüdo gələcəyinə sərmayə qoyur və məşqçilərimizin ən yüksək beynəlxalq standartlara uyğun təlim almalarını təmin edirik".

Hertfordşir Universitetinin professoru Mayk Kallen qarşılıqlı rifah prinsipinin federasiyanın işinin əsasını təşkil etdiyini vurğulayıb: "Federasiya fəaliyyətini təkcə milli komandaların üzvləri olan idmançıların inkişafı ilə məhdudlaşdırmır, eyni zamanda cüdo ekosistemində olan bütün tərəfdaşlarla birgə çalışaraq qarşılıqlı fayda təmin edən bir icma yaratmaq istiqamətində mühüm addımlar atır. Əminəm ki, bu layihə Azərbaycanda yeni nəsil cüdo məşqçilərinin yetişməsinə birbaşa töhfə verəcək".

İdman Akademiyasının rektoru Fuad Hacıyev bu əməkdaşlığın Azərbaycanda cüdo təhsili və məşqçiliyin keyfiyyətinin artırılması, həmçinin, gələcək nəsillərin idmanla daha təhlükəsiz və sağlam şəkildə məşğul olması üçün əhəmiyyətli bir fürsət olduğunu bildirib.

Böyük Britaniyanın Azərbaycandakı səfiri Ferqus Auld Hertfordşir Universiteti ilə əməkdaşlığın aparılmasından və Britaniya təcrübəsinin tətbiq olunmasından məmnunluğunu ifadə edib, gələcək nəsillərin təhsili və sağlamlığı üçün əhəmiyyətli addım olan mərasimə dəvət olunduğuna görə minnətdarlığını bildirib.

Daha sonra tədbir iştirakçıları praktiki dərsə baxış keçiriblər.

### Gimnaziadada iştirak edəcək taekvondoçularımız bəlli olub



Bəhreynin paytaxtı Manamada keçiriləcək Gimnaziadada iştirak edəcək Azərbaycan taekvondoçuları bəlli olub.

Azərbaycan Taekvondo Federasiyasının mətbuat xidmətindən "Report"a verilən məlumata görə, ölkəmiz yarışda 14 idmançı ilə təmsil olunacaq.

Millinin heyətində oğlanlar arasında Mehdi Budaqlı (45 kq), Kənan Əliyev (48 kq), Bahadur Dostuyev (51 kq), Ülvi Abdullayev (55 kq), Aydın Süleymanov (59 kq), Əbdülsübhan Dadaşlı (63 kq), Bilal Enis Turan (68 kq), Elcan Əliyev (78 kq), Allahverdi Məmmədov (+78 kq) qalib adı uğrunda yarışacaqlar.

Qızların mübarizəsində isə Gülü Zamanlı (42 kq), Xuraman Cavadzadə (44 kq), Nilufer Borji (49 kq), Seyidxanım Məmmədova (52 kq) və Sehri Cəlalova (55 kq) fəxri kürsüdə yer almağa çalışacaqlar.

Beynəlxalq dərəcəli referi Gündüz Abdullayev ölkəmizi hakim kimi təmsil edəcək.

Qeyd edək ki, taekvondo üzrə yarışlar 27, 28 və 30 oktyabr tarixlərində keçiriləcək. 71 ölkənin iştirak edəcəyi yarışda Azərbaycan 16 idman növündə 18 yaşadək 160 idmançı ilə təmsil olunacaq.

### Almaniyadakı beynəlxalq turnirdə iştirak edəcək gimnastlarımız kimlərdir?

Oktyabrın 25-də Almaniyanın Kotbus şəhərində start götürəcək batut gimnastikası üzrə "GymCity Open" beynəlxalq turnirdə iştirak edəcək Azərbaycan təmsilçiləri bəlli olub.

Bu barədə "Report"a Azərbaycan Gimnastika Federasiyasının mətbuat xidmətindən məlumat verilib.

Üç gün davam edəcək yarışda fərdi gimnastlar Hüseyn Abbasov, Nicat Mirzəyev, Əli Niftəliyev, Ammar Baxşalıyev, Fərhad Mustafayev, Ömər Qasımlı mübarizə aparacaqlar.

Sinxron çıxışlarda isə Hüseyn Abbasov - Nicat Mirzəyev, Əli Niftəliyev - Ammar Baxşalıyev və Fərhad Mustafayev - Ömər Qasımlı cütlükləri bacarıqlarını göstərəcəklər.

Onlara məşqçilər Vladimir Şulikin və Abdulla Qasımov rəhbərlik edəcək.


Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
598-37-76, 498-82-21
498-81-24, 498-19-84

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 4832**
**Sifariş: 2452**
"Kapital Bank" ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Elbrus Cəfərli